QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 151 (5382) 23 **avqust** 2017-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Regionların inkişafı uğurlu təməl prinsipinə əsaslanır

*İlham Əliyev: "2004-cü ildə mənim təşəbbüsümlə regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı qəbul edilmişdir və bu proqramın ölkə tarixində çox böyük rolu vardır"*

Səh 2



3

**Gürcüstan Prezidenti Azərbaycana minnətdarlıq edib**



3

**Ermənistan silahlı qüvvələrində növbəti biabırçılıq**



4

**"Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının 25-ci ildönümü qeyd olunub**



səs

www.sesqazeti.az

facebook Ses Media Holding

23 avqust 2017-ci il

# Regionların inkişafı uğurlu təməl prinsipinə əsaslanır

*İlham Əliyev: “2004-cü ildə mənim təşəbbüsümlə regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı qəbul edilmişdir və bu proqramın ölkə tarixində çox böyük rolu vardır”*

***Müasir Azərbaycanın qurucusu, Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu sosial-iqtisadi siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində, ölkədə siyasi və makroiqtisadi sabitliyə nail olunub, bütün sahələr üzrə köklü islahatlar aparılıb və davamlı sosial-iqtisadi inkişafın möhkəm təməli yaradılıbdır. 2003-cü ildə keçirilmiş prezident seçkilərində seçicilərin böyük əksəriyyətinin etimadını qazanmış Prezident İlham Əliyev andiçmə mərasimində bəyan etmişdi ki, Azərbaycan iqtisadiyyatının əsas istiqaməti onun neft strategiyasının həyata keçirilməsi, əldə olunan gəlirlər əsasında qeyri-neft sektorunun inkişafıdır. Ölkə rəhbəri hələ seçicilərlə keçirdiyi görüşlərdə bildirmişdir ki, Onun qarşıya qoyduğu əsas vəzifələrdən biri də işsizlik probleminin aradan qaldırılması, qısa zamanda ölkədə 600 min yeni iş yerinin yaradılmasıdır.***





Qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsinin ilk təməli 2004-cü ildə qoyuldu. O vaxtdan regionlarda həyat yeni mərhələyə qədəm qoydu, ölkədə əsaslı yenidənqurma, iş yerlərinin yaradılması istiqamətində ciddi dönüş yaradıldı. 2004-cü ildən əsası qoyulmuş məqsədyönlü siyasətin davamı olaraq, “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın təsdiqi və icrası ölkə iqtisadiyyatının inkişafında mühüm əhəmiyyət kəsb etmişdir. Xalq bu inkişafı gündəlik həyatında açıq şəkildə hiss edir. Bəllidir ki, həyata keçirilən dövlət proqramları regionlarda sahibkarlıq fəaliyyətinin genişlənməsində, yeni müəssisələrin və iş yerlərinin yaranmasında, irimiqyaslı infrastruktur layihələrinin həyata keçirilməsində, kommunal xidmətlərin səviyyəsinin yüksəldilməsində, əhalinin rifah halının daha da yaxşılaşdırılmasında və yoxsulluq səviyyəsinin aşağı düşməsində müstəsna rol oynayır.

## Aqrar məsələlərin həlli prioritet vəzifədir

Həyata keçirilən aqrar siyasəti və ərzaq təhlükəsizliyi proqramı nəticəsində, son illər regionlarda iri quşçuluq, heyvandarlıq, taxılçılıq, üzümçülük kənd təsərrüfatı məhsullarının istehsalı, tədarükü, saxlanması, emalı və satışı kompleksləri yaradılıb, bir sıra ərzaq məhsulları üzrə daxili istehsal artıb. Regionlarda inşa edilən və ya əsaslı təmir olunan yüzlərlə su anbarı, hidroqovşaqlar, kanallar, drenaj şəbəkələri, subartezian quyuları aqrar sektorun, sahibkarlığın inkişafını sürətləndirib, yeni torpaqların dövriyyəyə cəlb edilməsinə, içməli su və enerji təchizatının daha da yaxşılaşmasına imkan yaradıb. Bir vaxtlar tamamilə unudulmuş pambıqçılıq, tütünçülük, baramaçılıq, fındıqçılıq və ölkəyə daha çox valyuta gətirən kənd təsərrüfatı məhsullarının istehsalının artırılması istiqamətində böyük canlanma yaranıb. Dövlət başçısının rəhbərliyi ilə regionlarda keçirilən respublika müşavirələri bu sahələrdə ciddi dönüş yaradıb.

Mübaliğəsiz demək olar ki, regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının uğurla həyata keçirilməsi, nəinki bölgələrin, eləcə də, ümumilikdə ölkənin inkişafında bir dönüş nöqtəsi olmuş, aparılmış möhtəşəm quruculuq və abadlıq işləri bütün şəhər, rayon və kəndlərin simasını tanınmaz dərəcədə dəyişərək, regionlarda əhalinin həyat səviyyəsinin daha da yaxşılaşmasına böyük töhfə vermişdir. Son 14 ildə dayanıqlı və davamlı iqtisadi inkişafa nail olan, regionun siyasi, iqtisadi və mədəni mərkəzinə çevrilən ölkəmiz bu gün müəyyən edilmiş hədəflərə doğru inamla irəliləyir.

Əlbəttə ki, əldən olunan bu uğurlar güclü iqtisadiyyat və düşünülmüş siyasətin nəticəsidir ki, Azərbaycanda yoxsulluq 5 faizdən aşağıdır. Ölkə Prezidenti çıxışlarında da dəfələrlə vurğulayıb ki, əldə olunan uğurlar görülən işlərin nəticəsidir: “Bizim gördüyümüz işlərin nəticələri bax, budur. Bu rəqəmlər özlüyündə bizim uğurlu inkişafımızı təsdiq edir”.

Dövlət başçısı bu günlərdə Gədəbəy rayonunda səfərdə olduğu zaman bildirmişdir ki, ölkəmizdə bütün istiqamətlər üzrə tərəqqi və inkişafa meyil artmaqdadır: “Ölkəmizdə bütün istiqamətlər üzrə sürətli inkişaf gedir, sosial-iqtisadi məsələlər öz həllini tapır. Azərbaycan beynəlxalq arenada çox ləyaqətli ölkə kimi tanınır. Ölkəmizin bütün regionlarında sürətli inkişaf gedir. Beləliklə, ölkəmizin bu günü və gələcəyi üçün heç bir problem görmürəm, heç bir risk, təhlükə yoxdur. Azərbaycan çox təhlükəsiz ölkədir, əhalimiz sülh, əmin-amanlıq şəraitində yaşayır və gələcək inkişaf üçün də yaxşı perspektivlər var”.

Göründüyü kimi, regionların inkişafına göstərilən qayğı və diqqət bütövlükdə Azərbaycanın davamlı inkişafını təmin edir, ölkəmizi daha da gücləndirir, onun beynəlxalq nüfuzunu getdikcə artırır.

**RƏFİQƏ KAMALQIZI**

### Rəsmi xronika

Prezident İlham Əliyev Azərbaycan Xüsusi Dövlət Mühafizə Xidmətinin hərbi qulluqçularının təltif edilməsi haqqında Sərəncam imzalayıb.

***

Azərbaycan Prezidenti İlham Əliyev Elmar Qəzənfər oğlu Novruzova general-mayor ali hərbi rütbəsinin verilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Elşad Həmidova “Əməkdar həkim” fəxri adının verilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd olunur ki, Azərbaycan Xüsusi Dövlət Mühafizə Xidmətində səhiyyə sahəsinin inkişafında xidmətlərinə görə Elşad Belal oğlu Həmidova “Əməkdar həkim” fəxri adı verilsin.

***

Prezident İlham Əliyev Şəmkir şəhərində əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına dair tədbirlər haqqında Sərəncam imzalayıb.

# Amerikalı ekspert: “Azərbaycanda müxtəlif konfessiyaların nümayəndələrinin dinc yanaşı yaşaması mədəniyyəti formalaşıb”

***Beynəlxalq münasibətlər üzrə tanınmış amerikalı ekspert Piter Teyz AZƏRTAC-a müsahibə verib. Həmin müsahibəni təqdim edirik.***



*-ABŞ Dövlət Departamentinin Demokratiya, İnsan Haqları və Əmək Bürosu “2016-cı ildə dünya ölkələrində dini etiqad azadlığı haqqında məruzə” dərc edib. Hər il dərc edilən və Birləşmiş Ştatların Konqresinə təqdim olunan bu sənəd dünyanın müxtəlif regionlarında ABŞ-ın xarici siyasəti baxımından nə dərəcədə əhəmiyyətlidir?*

-Budəfəki illik məruzədə 195-dən çox müstəqil ölkədə və ərazilərdə dini etiqad azadlığının vəziyyətinə dair ətraflı icmal verilib. ABŞ Konstitusiyasına və bu ölkənin xarici siyasət konsepsiyasına görə, dini etiqad azadlığı insanın universal hüququ hesab edilir, Vaşinqton da dini etiqad azadlığının müdafiə olunmasına və qorunub saxlanmasına dəstək verdiyini nümayiş etdirir, çünki bu azadlıq iqtisadi sabitliyi, sosial ədaləti və ölkələrin dinc yanaşı yaşamasını təmin edir, bütün dünyada sülhü qoruyub saxlamağa kömək edir. ABŞ dövlət katibi Reks Tillersonun qeyd etdiyi kimi, indiki ABŞ hökuməti insan haqlarının və əsas azadlıqların müdafiəsi məsələlərinə sadiqdir. Bu məruzənin dərc edilməsi bütün dünyada sülh şəraitində, mənəvi dəyərlərə müvafiq şəkildə yaşamağa çalışan bütün insanlara səs hüququ verir.

*-Məruzənin Azərbaycana həsr edilmiş bölməsi barədə nə fikirdəsiniz?*

-Mənim fikrimcə, indiki şəkildə məruzə Azərbaycanda dini etiqad azadlıqlarının təsviri baxımından yarımçıqdır. Görünür, Dövlət Departamenti Azərbaycan Respublikası barədə aşağıdakı mühüm faktları qeyd etməyi unudub:

-Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çoxmədəniyyətli ənənələrin qorunub saxlanması və inkişaf etdirilməsi məqsədilə xüsusi sərəncam imzalayaraq 2016-cı ili bu ölkədə “Multikulturalizm İli” elan edib;

-2016-cı il sentyabrın 29-30-da Azərbaycan paytaxtında Bakı Beynəlxalq Humanitar Forumu təşkil edilib. Qlobal miqyaslı bu tədbirdə Nobel mükafatı laureatları, alimlər, çoxsaylı sabiq və indiki dövlət və hökumət başçıları iştirak edib. Belə adlandırılan “Bakı prosesi”nin inkişafı Azərbaycanda dini etiqad azadlığının möhkəmlənməsində daha bir mühüm mərhələdir;

-Azərbaycan Prezidentinin himayəsi və akademik Kamal Abdullayevin rəhbərliyi ilə Azərbaycan hökuməti tərəfindən Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması mühüm təşəbbüsdür, bu təşəbbüs konfessiyalararası dialoqu daha da möhkəmlədib və Azərbaycanda dini etiqad azadlığının inkişafına töhfə verib;

-Azərbaycan Respublikasının əraziləri iyirmi ildən çoxdur ki, işğal altındadır. Ermənistan silahlı qüvvələri Dağlıq Qarabağ regionunu və ona bitişik yeddi rayonu işğal altında saxlamaqda davam edir, nəticədə Azərbaycanın mindən çox dini abidəsi, kitabxanası, arxeologiya və mədəniyyət obyektləri ermənilərin davam etməkdə olan işğalı nəticəsində tamamilə məhv edilib;

-Məruzənin “Xarici qüvvələr və dövlətə aid olmayan şəxslər tərəfindən pozuntular” bölməsində yazılıb: “Hökumət Dağlıq Qarabağ üzərində nəzarəti saxlamır. Dini qruplar, o cümlədən “İyeqova şahidləri”, qeyri-hökumət təşkilatları, məsələn “Forum 18” belə xəbərlər yaymaqda davam ediblər ki, Dağlıq Qarabağdakı de-fakto hakimiyyət orqanları bütövlükdə dini fəaliyyəti məhdudlaşdırıb, lakin konkret azadlıqların pozulmaları barədə informasiya əlyetərli olmayıb”. Yaxşı olardı ki, məruzənin bu bölməsində Dağlıq Qarabağ regionunun və ona bitişik yeddi rayonun suveren Azərbaycan ərazisi olması vurğulansın və həmin ərazilərin hazırda Ermənistan silahlı qüvvələrinin işğalı altında olması beynəlxalq birliyə izah edilsin. Ermənistan hökuməti suveren Azərbaycan dövlətinin işğal edilmiş ərazilərində Azərbaycanın dini infrastrukturunun, mədəni, arxeoloji və tarixi abidələrinin məhv edilməsi kampaniyasını onilliklər boyunca davam etdirir.

*-Yeri gəlmişkən, Azərbaycanın mədəni və dini abidələrinin Ermənistan tərəfindən məhv edilməsi, Azərbaycanda ermənilərin dini abidələrinin vəziyyəti barədə nə deyə bilərsiniz?*

-Dünya birliyi bilməlidir ki, Bakının mərkəzində bərpa olunmuş erməni kilsəsi var, Azərbaycan hökuməti burada erməni dilində beş mindən çox kitabı qoruyub saxlayır. Digər tərəfdən, Ermənistan silahlı qüvvələri suveren Azərbaycanın ərazisində etnik təmizləmələr, kütləvi qətllər törədib, mədəni, dini və arxeoloji irs obyektlərini dağıdıblar.

Yeri gəlmişkən, Azərbaycanın suverenliyinə təhdidlər barədə... Həmin məruzədə adları çəkilən “siyasi məhbusların” uzun siyahısı barədə onu deyə bilərəm ki, görünür, bu adamlar geostrateji aktorlar tərəfindən qızışdırılan, hərc-mərcliyə, təhlükəsizliyin pozulmasına, etnik münaqişələrə gətirib çıxara və Azərbaycan Respublikasının ərazi bütövlüyünü, habelə bütün Qafqaz regionunda sülhü daha böyük təhlükə altına ala biləcək iğtişaşlar üçün provokasiyaya şərait yaradan amildir. Din təbliğçiləri “libası” geyinmiş belə insanlar sabitliyi pozmağa və Azərbaycan dövlətçiliyini tamamilə dağıtmağa çalışırlar.

*-Siz necə düşünürsünüz, Azərbaycanı multikulturalizm və dini dözümlülük üçün unikal məkana çevirən nədir?*

-Azərbaycan Prezidenti İlham Əliyevin haqlı olaraq bəyan etdiyi kimi, multikulturalizm əsrlər boyu həmişə xalqımız üçün səciyyəvi olub. Azərbaycanda müxtəlif dinlərə və etnik qruplara mənsub insanlar əsrlər boyu bir ailə kimi yaşayıblar. Azərbaycanın strateji coğrafi mövqeyi, onun xalqının mədəni xüsusiyyətləri və etnik tərkibi, buradakı tarixi proseslər müxtəlif dinləri, mədəniyyətləri, etnik qrupları və sosial dəyərləri ehtiva edən əlverişli sosial struktur yaradıblar. Azərbaycanda iudaizm, İslam, xristianlıq, habelə digər dini qruplar dinc yanaşı mövcud olub, bir-birinə qarşılıqlı təsir göstərib, ölkədə müəyyən dini və mədəni həyat tərzini bərqərar ediblər. Odlar Yurdu adlanan, Nuh peyğəmbərin doğulduğu yer olan Azərbaycan dünyada yeganə ölkədir ki, orada sünnilərlə şiələr eyni bir məsciddə ibadət edir və dini mərasimləri icra edirlər. Eyni zamanda, Azərbaycan dünyanın qədim xristian icmalarından biri üçün doğma evdir, bu icma əsrlər boyu Azərbaycanın sosial-mədəni irsinin formalaşmasına şərait yaradıb.

Bu çoxəsrlik təcrübə Azərbaycanda harmoniya, dinc yanaşı yaşama, dini dözümlülük mədəniyyəti, qarşılıqlı etimad və inam ab-havası yaradıb, bunun sayəsində müxtəlif konfessiyalara mənsub olan insanlar - xristianlar, müsəlmanlar və yəhudilər sülh və qarşılıqlı hörmət şəraitində yaşayırlar. Bu birlik Azərbaycan mədəniyyətinin və Azərbaycan cəmiyyətinin mühüm və parlaq tərkib hissəsi olaraq qalır.

***Yusif Babanlı***
***AZƏRTAC-ın xüsusi müxbiri***
***Vaşinqton***

## Gürcüstan Prezidenti Azərbaycana minnətdarlıq edib



Gürcüstanın Prezidenti Giorgi Marqvelaşvili ölkə ərazisində baş verən meşə yanğınlarının söndürülməsində göstərdikləri köməyə görə Azərbaycana və Türkiyəyə minnətdarlıq edib. AZƏRTAC xəbər verir ki, dövlət başçısı keçirdiyi brifinqdə təbii fəlakətin aradan qaldırılması üçün bütün dövlət resurslarının səfərbər edildiyini bildirib. Gürcüstan Daxili İşlər Nazirliyinin saytında yerləşdirilən məlumatda da Gürcüstan hökumətinin Azərbaycana təşəkkürü ifadə olunur. “Gürcüstan hökuməti göstərilən köməyə görə Azərbaycan tərəfinə, xüsusilə də Prezident İlham Əliyevə minnətdarlıq edir”, - deyə məlumatda vurğulanır.

## Giorgi Kvirikaşvili: Gürcüstanda yanğının söndürülməsi üçün ilk vacib yardımı Azərbaycan etdi



Gürcüstanın Baş naziri Giorgi Kvirikaşvili ölkə ərazisində davam edən meşə yanğınlarının söndürülməsinə qonşu dövlətlərin, xüsusilə Azərbaycanın göstərdiyi yardımı yüksək qiymətləndirib. AZƏRTAC xəbər verir ki, bununla bağlı xüsusi bəyanatla çıxış edən Baş nazir Gürcüstana ilk vacib köməyin Azərbaycandan gəldiyini bildirib. O vurğulayıb ki, Azərbaycandan gələn helikopter yanğının söndürülməsində iştirak edir. Türkiyədən gələn iki helikopter artıq Batumidədir, tezliklə onlar da yanğının söndürülməsi əməliyyatına başlayacaq.

Xatırladaq ki, Gürcüstanda meşə yanğınları avqustun 20-də başlayıb. Külək yanğının tam söndürülməsini çətinləşdirir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, Fövqəladə Hallar Nazirliyi (FHN) Gürcüstanın Borjomi-Xaraqulsk qoruğunda baş vermiş meşə yanğınlarının söndürülməsinə kömək məqsədilə helikopter göndərib.

## Aydın Mirzəzadə: “Azərbaycan və Türkiyə rəhbərlərinin görüşü həmişə böyük maraq doğurur”



“Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın Bakıya həftə sonu gerçəkləşdirəcəyi səfərin Azərbaycan-Türkiyə münasibətlərinə yeni təkan verəcəyi şübhəsizdir. Azərbaycan və Türkiyə rəhbərlərinin qarşılıqlı surətdə qardaş ölkəyə səfəri həmişə böyük maraq doğurur”. Bunu SİA-ya açıqlamasında millət vəkili Aydın Mirzəzadə deyib.

Deputatın sözlərinə görə, hər iki dost, qardaş ölkə arasında hər hansı bir problem yoxdur: “Görüşlər ancaq dostluğu daha da möhkəmləndirmək və qarşılıqlı əməkdaşlıq imkanlarının yeni metodlarını nəzərdən keçirməkdən ibarətdir. Həmçinin vaxtaşırı məsləhətləşmələr keçirilməsi, beynəlxalq aləmdə birgə addım atmaq variantlarını müəyyənləşdirmək üçün də istifadə edilməsidir. Həftə sonu Türkiyə prezidenti, Azərbaycan xalqının böyük dostu Rəcəb Tayyib Ərdoğanın Bakıya səfəri əlaqələrimizin möhkəmlənməsinə, münasibətlərimizin daha yüksək strateji səviyyəyə qalxmasına, beynəlxalq aləmdə birgə addımlamaq imkanlarının nəzərdə keçirilməsinə sərf ediləcək. İnanırıq ki, bu səfər bütün sahələrdə əməkdaşlığın genişlənməsinə, həmçinin Azərbaycan-Türkiyə dostluğunun əbədi və sarsılmaz olduğunu dünyaya sübut etmək üçün çox yaxşı bir şans olacaq”.

## Ermənistan silahlı qüvvələrində növbəti biabırçılıq



Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərimizdə yerləşən bölmələrində növbəti cinayət hadisəsi qeydə alınıb. AZƏRTAC xəbər verir ki, Madagiz hərbi bazasında şəxsi heyət arasında nizamnamədən kənar qarşılıqlı münasibətlərin pozulması nəticəsində əsgərlər Asatryan və Arsen Markaryan ciddi bədən xəsarətləri alıblar. Xidməti vəzifələrini yerinə yetirən alayın 4-cü taborunun hər iki əsgəri yuyunma yerinin təmizlənməsindən imtina etdikləri üçün taqım komandiri Aşot Gevorkyan tərəfindən vəhşicəsinə döyülərək hospitala yerləşdiriliblər. Bundan əlavə, məlum olub ki, elə həmin gün bu alayın 2-ci taborunun əsgəri Qaqik Martirosyanın da həlalik naməlum şəraitdə barmağı sındığı üçün hospitala aparılıb.

Ağdərə ətrafında yerləşən digər bölmədə odlu silahdan istifadə qaydalarının pozulması səbəbindən Hraç adlı əsgər barəsində açılan cinayət işi ilə əlaqədar hərbi qulluqçular Aram Mardinyan, Alyoşa Barseğyan, Apres Qriqoryan və Harutyun Hakopyan istintaqa cəlb olunublar.

Yenə də Ağdərədə yerləşən işğalçı ordunun hərbi hissədə müqavilə əsasında xidmət edən hərbi qulluqçusu Armen Yeğazaryan tərəfindən kiçik rütbəli zabitin döyülməsi, o cümlədən fərarilik və mobil telefondan istifadə etmə faktları üzrə cinayət işləri açılıb.

səs
www.sesqazeti.az
facebook
Ses Media Holding
23 avqust 2017-ci il

# “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının 25-ci ildönümü qeyd olunub





***Avqustun 22-də “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının yaranmasının 25-ci ildönümü qeyd olunub. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak edib.***

“Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının komandiri general-mayor Asəf Quliyev Ali Məclisin Sədrinə raport verib.

Ali Məclisin Sədri ümummilli lider Heydər Əliyevin büstü önünə gül qoyub, dahi şəxsiyyətin xatirəsini dərin ehtiramla yad edib.

Sonra Ali Məclisin Sədri sərhədçiləri salamlayıb, Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının yaranmasının 25-ci ildönümü münasibətilə şəxsi heyəti təbrik edərək deyib: “Hər bir ölkənin müstəqilliyinin və dövlətçiliyinin ən mühüm şərtlərindən biri onun dövlət sərhədlərinin olmasıdır. Dövlət sərhədi olmayan və sərhədi qorunmayan ölkə müstəqil ola bilməz. Azərbaycanda dövlət müstəqilliyi elan olunan gündən onun ayrılmaz hissəsi olan Naxçıvanda sərhədlərin milli sərhəd qüvvələri tərəfindən qorunması gündəlikdə dayanırdı. Həmin vaxt Sovetlər Birliyinin Naxçıvandakı sərhədlərində 41-ci Sərhəd Dəstəsi dayanmışdı. Sərhədin Ordubad və Sədərəkdən keçən hissəsinin mühafizəsini aparan sərhəd zastavaları Ermənistan ərazisindəki sərhəd dəstəsinin tabeliyində idi. O dövrdə Naxçıvan Muxtar Respublikasının rəhbəri olan ulu öndər Heydər Əliyevin səyi ilə həmin sərhəd zastavaları Naxçıvandakı 41-ci Sərhəd Dəstəsinin tabeliyinə verildi. Mühüm siyasi və tarixi əhəmiyyət daşıyan



bu addım muxtar respublikanın sərhədlərinin etibarlı müdafiəsini və milli sərhəd dəstəsinin yaradılmasını şərtləndirdi. 1992-ci il avqustun 22-də Naxçıvandakı sərhəd dəstəsində Ümummilli Liderimizin rəhbərliyi ilə ilk dəfə olaraq Azərbaycanın üçrəngli bayrağı qaldırıldı və Azərbaycanın ilk milli sərhəd dəstəsinin təməli qoyuldu.

Ulu öndərimiz Heydər Əliyev Naxçıvanda ilk sərhəd dəstəsinin yaradılması barədə demişdir: “Azərbaycan müstəqillik yolu ilə getməyə başlayanda respublikamızda sərhəd dəstələri yaratmaq zərurəti meydana çıxdı. O cümlədən burada Azərbaycanın ərazisindən ayrı düşmüş və o illərdə, elə indi də blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikasında da bu problemi həll etmək lazım idi. Biz bu problemi həll etdik. 41 nömrəli Sərhəd Dəstəsinin bütün əmlakı, bütün qurğular, silahlar, sursatlar, ləvazimatlar, texnika Naxçıvan Muxtar Respublikasının sərəncamına keçdi... Əminəm ki, Naxçıvan Sərhəd Dəstəsi günü-gündən inkişaf edəcək, sərhədlərimiz etibarlı şəkildə qorunacaqdır”.

“Naxçıvan Sərhəd Dəstəsinin inkişafı Ümummilli Liderimizin ali hakimiyyətə qayıdışından sonra da diqqət mərkəzində saxlanmış, burada nümunəvi və peşəkar sərhəd qüvvələri formalaşmışdır”, - 



deyən Ali Məclisin Sədri bildirib ki, ölkə Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə 2004-cü ildə Naxçıvan Sərhəd Dəstəsinin bazasında “Naxçıvan” Sərhəd Diviziyası yaradılıb, 2015-ci ildə Sərhəd Diviziyası “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasına çevrilib. Bununla da muxtar respublikanın sərhədlərinin mühafizəsi, bu sahədə həyata keçirilən quruculuq işləri yeni mərhələyə qədəm qoyub. Son illər müasir sərhəd zastava kompleksləri tikilərək istifadəyə verilib, maddi-texniki baza gücləndirilib, sərhədçilərin xidmət və məişət şəraiti əsaslı şəkildə yaxşılaşdırılıb, şəxsi heyətin peşəkarlığı artırılıb.

Ali Məclisin Sədri sonra deyib: “Sərhəd dövlətimiz üçün müqəddəsdirsə, sərhədçi olmaq, sərhədləri qorumaq isə şərəfli işdir. Hər bir sərhədçi öz xidməti ilə nümunə göstərməli, sərhədlərin mühafizəsinə həmişə hazır olmalıdır. “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının 25-ci ildönümü münasibətilə bir daha şəxsi heyəti təbrik edir, hər birinizə xidməti-döyüş fəaliyyətinizdə uğurlar arzulayır, şərəfli Azərbaycan sərhədçisi adını doğruldacağınıza inamla çıxışımı ölkə Prezidenti cənab İlham Əliyevin fikirləri ilə tamamlayıram: “Sərhədlərimizin qorunması təhlükəsizliyimizin təmin edilməsi deməkdir”.

“Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının komandiri general-mayor Asəf Quliyev çıxış edərək deyib ki, ümummilli liderimiz Heydər Əliyevin ordu quruculuğu sahəsində müəyyənləşdirdiyi vəzifələrin uğurlu icrası “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının da hərtərəfli inkişafına səbəb olub, şəxsi heyətin xidməti-döyüş hazırlığı və peşəkarlığı artırılıb, muxtar respublikanın sərhədlərinin etibarlı müdafiəsi təşkil olunub. Ötən dövrdə “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının qərargahı, əsgər xəstəxanası, hamam-camaşırxana kompleksi, çörək sexi və Şərur sərhəd komendantlığı yenidən qurulub, 9 sərhəd zastava kompleksi və Culfa sərhəd komendantlığı müasir tələblərə uyğun tikilərək istifadəyə verilib, bütün bölmələr üzrə anbarlar əsaslı təmir olunub. Aparılmış abadlıq işləri ərazini müasir hərbi şəhərciyə çevirib. Sərhədçi ailələrinin sosial məişət şəraitinin yaxşılaşdırılması da diqqət mərkəzində saxlanılıb, yaşayış binaları əsaslı təmir olunub, mərkəzləşdirilmiş istilik sistemi yaradılıb, hərbi şəhərcikdə müasir uşaq bağçası tikilərək istifadəyə verilib.

*Ardı Səh. 5*



# “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının 25-ci ildönümü qeyd olunub

Əvvəli Səh. 4

Bütün bunlar sərhədçilərə və onların ailələrinə göstərilən qayğının daha bir nümunəsidir. Asəf Quliyev “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının inkişafı və sərhəd xidmətinin nümunəvi təşkili sahəsində həyata keçirilən tədbirlərə görə şəxsi heyət adından minnətdarlıq edib.

Əsgər Elgiz Tağıyev deyib ki, muxtar respublikada müasir sərhəd infrastrukturu yaradılıb. “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasında, eləcə də ən ucqar sərhəd zastavalarında hərtərəfli xidmət şəraiti yaradılıb. Sərhədçilərin qidalanmasına, sağlamlıqlarının qorunmasına və peşəkarlıqlarının artırılmasına xüsusi diqqət yetirilir. Şəxsi heyət arasındakı birlik, eləcə də müasir silah və texnika təminatı qüdrətimizi daha da artırır. Bundan sonra da muxtar respublikada dövlət sərhədlərinin keşiyində ayıq-sayıq dayanacağıq. Hər bir sərhədçi Ulu Öndərimizin əmanəti olan dövlət sərhədlərini göz bəbəyi kimi qoruyacaq, dahi şəxsiyyətin ideyalarına daim sadiq qalacaqdır.



Sonra tədbirdə “Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə” və “Rəşadətli əməyə görə” nişanlarının, bir qrup sərhədçiyə isə Ali Məclis Sədrinin hədiyyələrinin təqdimatı olub. Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 21 avqust tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasında sərhəd xidmətində səmərəli fəaliyyətinə görə 4 sərhədçi “Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə”, 5 sərhədçi isə “Rəşadətli əməyə görə” nişanları ilə təltif olunub.

Ali Məclisin Sədri “Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə” və “Rəşadətli əməyə görə” nişanlarını, eləcə də hədiyyələri sərhədçilərə təqdim edib.

Şəxsi heyət təntənəli marşla tribunanın önündən keçib.

Sərhədçi ailələri ilə görüşən Ali Məclisin Sədri onları “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının yaranmasının 25-ci ildönümü münasibətilə təbrik edərək deyib: “Son illər “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasında və zastavalarda geniş quruculuq işləri aparılmış, müasir infrastruktur yaradılmış, sərhəd xidməti tam təkmilləşdirilmişdir. Bu gün sərhədlərimiz etibarlı qorunur. Hər bir zabit və gizir sərhədçi adını doğrultmaq üçün xidmətə məsuliyyətlə yanaşır. Xidmətin uğurlu alınmasında sərhədçi ailələrinin də böyük dəstəyi vardır”.

Sərhədçi ailələri adından minnətdarlıq edən Dürdanə Ağayeva deyib: “Bu gün muxtar respublikada sərhədçi ailələrinə hərtərəfli qayğı göstərilir. “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasında geniş quruculuq işləri aparılıb, müasir hərbi şəhərcik salınıb, uşaq bağçası istifadəyə verilib. Rahat və müasir mənzillərdə yaşayırıq. Övladlarımızın tərbiyə olunması və yaxşı təhsil alması üçün lazımi şərait yaradılıb. Həyata keçirilən tədbirlər, yaradılan şərait sərhədçi ailələri tərəfindən minnətdarlıq hissi ilə qarşılanır”.

Sonra “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının anbarlarına baxış olub. Bildirilib ki, “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının anbarları müasir tələblər səviyyəsində qurulub. Diviziyanın ərzaq anbarlarında soyuducu kameralar quraşdırılıb, ərzaqların keyfiyyəti dəyişilmədən uzun müddət saxlanılması təmin edilib. Həmçinin mənzil-istismar, avtomobil nəqliyyatı, əşya-geyim, silah, mühəndis materialları və rabitə avadanlıqları anbarları da əsaslı şəkildə yenidən qurulub, yeraltı sursat anbarı inşa olunub. Ərazidə avtomobil və texnikaların saxlanılması və hərəkəti üçün də lazımi şərait yaradılıb.

Ali Məclisin Sədri şəxsi heyətin qidalanmasına və sağlamlıqlarının qorunmasına ciddi diqqət yetirilməsinin vacibliyini vurğulayıb, xidmətin təşkili ilə bağlı müvafiq tapşırıqlar verib. Sonra Ali Məclisin Sədri əsgər yeməkxanasına baxıb, çay süfrəsi arxasında əsgərlərlə söhbət edib.

# Hərbi xidmət doğma yurda bağlılıqdan, Vətən sevgisindən doğur

## *Azərbaycanda gənclər hərbi xidmətə daha həvəslə və yüksək vətənpərvərlik hissi ilə yollanırlar*

***Məlum olduğu kimi, Prezident İlham Əliyevin müvafiq Fərmanına əsasən, hərbi xidmətə yollanan əsgərlərin andiçmə mərasimləri keçirilməkdədir. İşğalçı ölkə Ermənistandan fərqli olaraq, Azərbaycanda gənclər hərbi xidmətə daha həvəslə və yüksək vətənpərvərlik hissi ilə yollanırlar. Bu da onunla bağlıdır ki, Azərbaycanda Ali Baş Komandan Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində hərtərəfli təmin edilmiş güclü ordu mövcuddur. Digər bir amil isə, əlbəttə ki, ölkəmizdə hərbi vətənpərvərlik ruhunun yüksək saxlanılması istiqamətində həyata keçirilən məqsədyönlü siyasətlə əlaqəlidir.***

Çünki Ulu Öndər Heydər Əliyev milli şüurun formalaşdırılması, gənclərin intellektual səviyyəsinin, vətənpərvərlik duyğularının yetərincə olması üçün bu sahəyə xüsusi diqqət yetirilməsinə hər zaman mühüm önəm verirdi, özünün ideoloji fəaliyyətinin başlıca istiqaməti sayırdı.

Ümummilli Liderimizin milli vətənpərvərlik ideyalarında ən önəmli yerlərdən birini müasir nəsli milli vətənpərvərlik ruhunda tərbiyə etmək məsələsi tuturdu. Dahi öndərin fikrincə, gənclərimiz Azərbaycan tarixini hərtərəfli öyrənməli, keçmişi dərindən mənimsəməli, dilimizi yaxşı bilməlidirlər. Milli dəyərlərimizə və ənənələrimizə sadiq qalmayan gənc vətənpərvər ola bilməz. Hər bir gənc yüksək vətənpərvərlik ruhu ilə yaşamalıdır. Vətənpərvərlik, sadəcə, orduda xidmət deyil, eyni zamanda, Vətəni dərin məhəbbətlə sevməkdir. Torpağa və yurda bağlı olmaqdır.

Ümummilli Liderimiz gənclərin milli vətənpərvərlik və hərbi vətənpərvərlik problemlərini daim diqqətdə saxlayırdı. Hərbi vətənpərvərliyi milli vətənpərvərliyin zirvəsi sayan Ulu Öndər gəncləri hərbi xidmətə hazırlamağa, orduda qulluq edən gənclərə qayğı göstərməyə, onların fiziki və mənəvi, hərbi-texniki hazırlığını yüksəltməyə xüsusi önəm verirdi. Dahi şəxsiyyət gənclər qarşısında çıxışlarının birində qeyd edirdi: “Azərbaycanın suverenliyi hər bir azərbaycanlı vətəndaş üçün ən müqəddəs məqsəddir, ən müqəddəs vəzifədir. Belə olan halda, biz öz taleyimizin sahibi kimi vətənimizi, torpaqlarımızı öz gücümüzlə qorumalıyıq. Bunu xalq, bizim gənclər, ordu sıralarındakı vətən oğulları etməlidirlər. Ona görə orta məktəblərdə bir tərəfdən hərbi tədrisə, gənclərin fiziki hazırlığına ciddi fikir verilməlidir, digər tərəfdən isə, gənclərdə vətənpərvərlik hissini yüksəltmək, gəncləri Vətəni qorumağa hazır olmaq ruhunda tərbiyə etmək lazımdır”.



Yeri gəlmişkən, 1969-cu ildə Ulu Öndər respublikaya rəhbər təyin olunandan sonra Moskvanın milli siyasətinin təsiri get-gedə zərərsizləşdirildi. Milli ruhda gənclər yetişdirmək prosesinə start verildi. Gələcəyin peşəkar azərbaycançılıq ruhunda tərbiyə alan hərbçilərini yetişdirmək məqsədi ilə 1972-ci ildə Bakıda Cəmşid Naxçıvanski adına Hərbi Lisey açıldı. Azərbaycanlı gənclər SSRİ-nin ali hərbi məktəblərinə göndərildi. Ümummilli Liderimiz ikinci dəfə hakimiyyətə qayıdandan sonra da gəncliyin vətənpərvərlik tərbiyəsinə xüsusi önəm verdi. O, Ali Sovetin Sədri seçiləndən sonra ilk görüşünü, 1993-cü il sentyabrın 22-də, məhz gənclərlə keçirdi. Gənclərə vətənpərvərlik ruhunun aşılanması yönündə öz konsepsiyasını irəli sürdü.

Ümummilli Liderin rəhbərliyi ilə, o dövrdə gənclər siyasətinin geniş miqyasda həyata keçirilməsi üçün bir sıra strukturlar təsis edildi. Gənclər və İdman Nazirliyi yaradıldı. Mütəmadi olaraq, gənclər forumları keçirildi. Fevralın 2-si Gənclər Günü elan olundu. Gənclərin təşkilatlanmasına, vətənpərvərlik hisslərinin gücləndirilməsinə həyati əhəmiyyətli məsələ kimi yanaşıldı. Bu, təsadüfi deyildi. Çünki Azərbaycan müharibəyə cəlb olunmuşdu. Heydər Əliyev məktəbi keçmiş Cənab İlham Əliyev də 2003-cü ildə prezident seçildikdən sonra həmin kursu davam etdirdi. “Azərbaycan gəncliyi 2005-2009-cu illərdə”, “Azərbaycan gəncliyi 2011-2015-ci illərdə” adlı dövlət proqramları hazırlanıb tətbiq olundu. Bu proqramların əsasında gənclərin vətənpərvərlik təbliğatının gücləndirilməsi mühüm yer tutur. Hazırda ölkə başçısı tərəfindən rayon və şəhərlərimizdə 20-dən çox gənclər mərkəzi fəaliyyət göstərir. Həmin mərkəzlərdə milli vətənpərvərliklə bağlı xüsusi klublar və guşələr yaradılıb. Bundan başqa, 2011-ci ildə Azərbaycanda Gənclər Fondunun yaradılması, 2012-ci ildə isə həmin fondun statusunun artırılaraq Azərbaycan Respublikası Prezidenti yanında Gənclər Fondu kimi fəaliyyət göstərməsi heç də təsadüfi deyil. Artıq Gənclər Fondu tərəfindən dəstək verilən layihələr getdikcə artır.

Ötən müddət ərzində Azərbaycan gəncləri vətənpərvər ruhda yetişiblər. Əvvəllər bu işi yalnız dövlət görürdüsə, artıq hazırda Azərbaycan gəncləri özləri vətənpərvərliklə bağlı layihələri könüllü şəkildə həyata keçirirlər. Gənclərimiz bu gün Ulu Öndərin ideyalarını birbaşa həyata keçirən Cənab İlham Əliyevin ətrafında sıx birləşiblər. Bu gün Azərbaycan gəncləri ölkə hüdudlarından kənarda da ölkəmizin təbliğini uğurla aparırlar. Gənclərimizin səsi bir çox tanınmış ali məktəblərdən, elmi-tədqiqat mərkəzlərindən gəlir. Ölkə hüdudlarından kənarda olsalar da, ürəkləri daim Azərbaycanla döyünür.

Azərbaycan xalqı gələcəyimiz olan gənc nəslin vətənə məhəbbət, elinə və obasına hörmət, soykökünə, öz ata-baba ənənələrinə sədaqət ruhunda tərbiyə olunmasına həmişə böyük məsuliyyətlə yanaşmış və ona həyati əhəmiyyətli məsələ kimi baxmışdır. Bu da, bir həqiqətdir ki, vətənpərvərlik insanda fədakarlıq, qəhrəmanlıq və məğlubedilməzlik hissi yaradır, apardığı mübarizədə onda inam hissini gücləndirir.

Vətənpərvərlik qəhrəmanlığın əsasını qoyan amildir. Şanlı tariximizlə, əfsanəvi qəhrəmanlarımızla həmişə fəxr edirik. Cavanşir, Babək, Şah İsmayıl Xətai, Əliağa Şıxlinski, Cəmşid bəy Naxçıvanski, Həzi Aslanov, İsrafil Məmmədov, Mehdi Hüseynzadə kimi igid və cəsur sərkərdələrimizin şəxsi nümunəsi deməyə əsas verir ki, Azərbaycan xalqı qəhrəman xalqdır və bu xalq öz vətənini göz bəbəyi kimi qorumağa hazır olan mətin gənclər yetirib.

Artıq inamla deyə bilərik ki, erməni qəsbkarlarına qarşı ölüm-dirim savaşında həlak olmuş qəhrəmanlarımızın ibrətamiz həyatı, şəxsi nümunəsi aparılan hərbi-vətənpərvərlik tərbiyəsi işində ön plana keçib. Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev çıxışlarının birində deyib: “Bu gün qəhrəman oğullarımızın qəsbkar erməni işğalçılarına qarşı döyüşlərdə qazandıqları misilsiz qəhrəmanlıqlar əsl vətənpərvərlik tərbiyəsidir. Onlar müharibə cəbhələrində igidliklə vuruşaraq, doğma respublikamızın ərazi bütövlüyünü qoruyub-saxlamaq üçün öz canlarını qurban verirlər. Azərbaycan torpaqları işğalçı qüvvələrdən azad olunacaq, bizim soydaşlarımız öz doğma torpaqlarına qayıdacaqlar”.

***“Səs” Analitik Qrupu***

# Avrasiya İqtisadi Birliyi - Türkiyə bu təşəbbüsdən uğur qazanacaq

*Ermənistanın siyasi şantajları isə daxili publikaya yönəlmiş nəticəsiz addımdır*

**Türkiyənin Avrasiya İqtisadi Birliyinə üzv olması təşəbbüsü ətrafında Ermənistan ictimai rəyində ciddi çaxnaşma yaşanmaqdadır. Məsələ ondadır ki, erməni mediasında çıxış edən bir sıra politoloqlar, siyasi icmalçılar, iqtisadi ekspertlər və dövlət rəsmiləri Türkiyənin AİB-ə üzv olmasını mümkün saysalar da, bunun yalnız iki ölkə arasında bağlı olan sərhədlərin açılacağı təqdirdə reallaşa biləcəyini deyirlər. Siyasi şantaj xarakterli bənzər açıqlama və bəyanatların verilməsi isə daxili publikaya yönəlmiş hal kimi qiymətləndirilə bilər. Çünki nəzərə alsaq ki, Ermənistanın siyasi-iqtisadi taleyi daha çox Rusiyanın əlindədir və Türkiyənin təşəbbüsünə dəstək verən əsas ölkələrdən biri də yenə Rusiyadır, bu zaman ermənilərin şantajlarının təsirsiz olacağını düşünmək olar.**

### Rəcəb Tayyib Ərdoğanın sərhədlərin açılmayacağı barədə səsləndirdiyi qətiyyətli fikirləri bu gün də öz qüvvəsində qalmaqdadır!

Başqa tərəfdən, o da məlumdur ki, Dağlıq Qarabağ münaqişəsi həll olunmadan Türkiyə-Ermənistan sərhədlərinin açılması üçün hazırkı dövrə qədər göstərilən təşəbbüslərin heç biri səmərə verməyib. Buna ən güclü səbəb isə, hələ 2009-cu ildə istər Azərbaycan, istərsə də Türkiyə ictimaiyyətinin kəskin reaksiyaları oldu. Belə ki, iki qardaş xalqın nümayəndələri, politoloq və ekspertləri, o cümlədən, dövlət və hökumət rəsmiləri yalnız Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq siyasətindən əl çəkəcəyi, torpaqlarımızın azad ediləcəyi halda sərhədlərin açılması mümkünlüyü barədə fikir bildirmişdilər.

Onu da xatırladaq ki, məhz həmin ərəfələrdə - 2009-cu ildə Türkiyə ilə Ermənistan arasında protokolların imzalanması arxasında Avropa İttifaqının müəyyən olunmuş şərti dayanırdı. Daha dəqiqi, həmin vaxt Türkiyənin Avropa İttifaqına üzv kimi qəbul edilməsi yolunda rəsmən açıqlanmayan əsas şərtlərdən biri Ermənistanla münasibətlərin normallaşdırılması və sərhədlərin açılması idi.

Lakin işğalın davam etdiyi müddətdə bunun heç vaxt mümkün olmayacağı elə həmin ildə Türkiyənin baş naziri olan Rəcəb Tayyib Ərdoğan tərəfindən qəti olaraq bəyan edilmişdi. 2009-cu ilin 13 may tarixində o, Bakıya rəsmi səfəri zamanı, eyni zamanda, Azərbaycan parlamentindəki çıxışında bu məsələyə nöqtə qoymuşdu. Məhz bu bəyanatın ardınca, Türkiyənin digər rəsmi şəxsləri də dəfələrlə Dağlıq Qarabağda işğal bitmədən sərhədlərin açılmayacağını bəyan etdilər.

### Təlatümlərdə boğulan Ermənistan daha çox dalana dirənmiş olur

Əlbəttə, baş verənlər arxasında dayanan və Ermənistanı kəskin olaraq narahat edən məsələlərdən biri də paralel olaraq Türkiyə ilə Rusiya arasındakı yaxınlaşma faktorudur. Bu yaxınlaşma iki ölkə arasında heç vaxt olmadığı kimi mövcuddur və hərbi, iqtisadi, sosial sferalarda münbit, səmərəli, eləcə də qarşılıqlı fikir mübadilələri aparılmaqdadır. Erməniləri də narahat edən budur, ona görə də, həmin yaxınlaşma işğalçı ölkənin 1 nömrəli və ən aktual mövzusuna çevrilib. Xüsusilə, Türkiyənin iqtisadiyyat naziri Nihat Zeybekçinin ölkəsinin Avrasiya İqtisadi Birliyi ilə anlaşma imzalamaq niyyətində olduğunu deməsi, rəsmi Ankaranın AİB-lə gömrük anlaşmasını imzalamaq barədə təklif aldığını Türkiyə ictimaiyyətinə bəyan etməsi onsuz da təlatümlərdə boğulan Ermənistanı daha çox dalana dirəmiş olub. Məngənədə sıxılmağa başlayan Ermənistan ən yaxşı halda, Türkiyənin AİB-ə üzv olmasına qarşı çıxacağını bəyan edə bilər. Çünki işğalçı ölkənin "sərhədləri açın, bundan sonra quruma üzv olun" şantajının keçərsiz olduğunu elə bu fikirləri irəli sürən ekspertləri də yaxşı bilirlər. Halbuki həmin şantajlar sırasına, ilkin olaraq, Ermənistanın Xarici İşlər Nazirliyi öz bəlli bəyanatı ilə qoşulmuşdu. Ermənisran XİN bəyan etmişdi ki, AİB ilə anlaşma imzalamaq üçün qurumun Yerevanın razılığına ehtiyac var. Erməni mediası isə, iddia edir ki, rəsmi Yerevan Türkiyə qarşısında sərhədlərin ön şərt qoyulmadan açılması şərtini irəli sürə bilər.

### Digər səbəblər də var...

Onu da unutmaq olmaz ki, Türkiyə-Ermənistan sərhədlərinin bağlı olması, yalnız Azərbaycanla əlaqədar deyil və ortada digər səbəblər də mövcuddur. Misal üçün, Ermənistanın müstəqillik bəyannaməsində, dövlət gerbində və konstitusiyasında Türkiyəyə qarşı ərazi iddiaları yer alır. Hətta Ermənistan Konstitusiya Məhkəməsinin 12 yanvar 2010-cu il tarixli qərarında Türkiyə-Ermənistan prortokollarının Ermənistanın müstəqillik bəyannaməsinin və konstitusiyasının əlaqədar (Türkiyəyə ərazi iddiası irəli sürən) maddələrinə zidd şərh olunmayacağı qeyd olunurdu. Bu isə, o deməkdir ki, Türkiyənin Ermənistana hansı güzəştə getməsindən asılı olmayaraq, ermənilər nə "soyqırımı"nın tanınması, nə təzminat almaq, nə də ərazi iddialarından geri durmur. Söz yox ki, bu iddialar işğalçı ölkəni düşdüyü məngənədə daha çox sıxacaq.

### Ərdoğanın Bakı səfəri - Azərbaycan-Türkiyə münasibətlərinə daha güclü və daha yeni təkanlar!

Yeri gəlmişkən, bu günlərdə Türkiyənin prezidenti Rəcəb Tayyib Ərdoğan Bakıya rəsmi səfər edəcək və onun həftə sonu gerçəkləşdirəcəyi səfərin Azərbaycan-Türkiyə münasibətlərinə daha güclü və daha yeni təkanlar verəcəyi şübhəsizdir. O cümlədən, qeyd edə bilərik ki, geosiyasi maraqların fövqündə olan Azərbaycan-Türkiyə münasibətlərin xarakterini yalnız iqtisadi-siyasi və s. əlaqələrin yüksək səviyyədə olması müəyyən etmir, xalqlarımızı ortaq din, mədəniyyət, dil və əsassız iddialara qarşı müştərək mübarizə tarixi birləşdirir. Belə olan halda, Ermənistanın hansısa şərtlər irəli sürərək, AİB ətrafında oyun qurması nəticə etibarilə sıfır həddini aşmayacaq. Əksinə, bəlli ifadələrlə daxili publikaya yönəlmiş şərtlər ac və səfil işğalçı ölkədə yeni qiyamların qalxmasına səbəb olacaq. Türkiyə isə, bu təşəbbüsdən yalnız uğur əldə edəcək.

***Rövşən NURƏDDİNOĞLU***

# Hikmət Babaoğlu: "Türkiyə-Azərbaycan müttəfiqliyi xalqlarımızın diktə etdiyi münasibətlərdir"

***"Beynəlxalq münasibətlərdə çox mürəkkəb siyasi proseslər baş verir. Bu mərhələnin əsas səciyyəvi xüsusiyyətlərindən biri yeni güc və tarazlıq mərkəzlərinin formalaşmasıdır". Bu sözləri SİA-ya açıqlamasında "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, millət vəkili Hikmət Babaoğlu deyib.***



Onun sözlərinə görə, həmin proseslərdə hər bir dövlət öz maraqlarını qorumaq üçün qərarlar qəbul edir: "Bəzən qarşı tərəfə müəyyən ismarıclar vermək, siyasi nəbzi yoxlamaq məqsədilə müxtəlif fikirlər səsləndirilir. Türkiyə tərəfindən səsləndirilən fikrin Ermənistan tərəfindən tələsik olaraq səhv istiqamətdə yozulması bu addıma sübutdur və hətta Türkiyənin Avrasiya İttifaqına qoşulması məsələsi gündəmə gələcəksə onda bu ittifaqın üzvlərindən biri kimi Ermənistanın bu məsələdə müəyyən şərtlər irəli sürəcəyi qeyd olunur. Bu kimi fikirlər Ermənistan xarici siyasətinin acizliyindən irəli gəlir. Çünki Ermənistan terrorçu dövlət olduğu üçün, onun xarici siyasəti də terror diplomatiyasına və yaxud siyasi terrora söykənən xarici siyasətdir. Gələcəkdə hansı ölkənin necə addımlar atmağının proqnozlaşdırılması mümkün deyil. Ermənistan mediasının bu cür siyasi spekluyasiyalar etməsi onun Azərbaycan torpaqlarını işğal altında saxlaması, həmçinin ərazi iddiası ilə çıxış etdiyi Türkiyəni şantaj etmək cəhdləridir. Bunun özünə diplomatik terror deyilir. Biz bilirik ki, bənzər proseslər 2009-cu illərdə də yaşanıbdır. O dövrdə də müxtəlif beynəlxalq təşkilatların himayəsi altında olan Ermənistan-Türkiyə sərhədlərinin açılması məsələsini ortaya atmışdı. Ermənistanın bu niyyəti Türkiyə ilə Azərbaycan arasındakı münasibətləri soyutmaq cəhdləri idi. Lakin bu cəhdlər iflasa uğradı. Çünki Türkiyə-Azərbaycan münasibətləri hər iki ölkənin xalqlarının diktə etdiyi münasibətlərdir. Türkiyə -Azərbaycan strateji müttəfiqliyi, hər iki ölkənin və yaxud "bir millət iki dövlət"in siyasi iradəsinin nəticəsindən irəli çıxan münasibətlərdir. Bu gerçəklik heç bir zaman dəyişməyəcək, belə də qalacaq. Ona görə də Ermənistan mediasında da, xarici siyasət idarəsində də məsələlərin tələsik belə şərh edilməsi bir daha Ermənistanın qeyri-ciddi dövlət olduğundan xəbər verir. Şübhəsiz ki, gələcəkdə də hansısa ittifaqdan söhbət gedəcəksə, Türkiyə qərar qəbul edərkən "bir millət iki dövlət"in milli maraqlarını nəzərə alaraq qərar qəbul edəcək və əgər bu cür hallar mümkün olacaqsa siyasi prespektivdə hansısa ölkənin Avrasiya İttifaqına qoşulması ilə bağlı heç kəs Ermənistanın fikrini soruşmayacaq. Çünki bu ittifaqı yaradanlar, onun şərtlərini diktə edənlər var və onlar üçün Ermənistan sadəcə, "for-post"dan başqa bir şey deyildir".

# "Sərhədlərin açılması ilə bağlı informasiyaların əsası yoxdur"



"Türkiyə ilə Avrasiya İqtisadi Birliyinin gömrüklə bağlı ortaq razılaşmanın meydana gələ biləcəyi ehtimalı ortalıqdadır. Gömrük münasibətlərinin qurulması Ermənistanla sərhədlərin açılması, eləcə də Türkiyə-Ermənistan diplomatik münasibətlərinin ortaya çıxacağı anlamına gəlmir". Bunu SİA-ya açıqlamasında siyasi şərhçi Elçin Mirzəbəyli deyib. Onun sözlərinə görə, bu məsələdə ən çox aktivlik nümayiş etdirənlər ermənipərəst dairələr, Ermənistan mətbuat orqanları və Rusiyadakı erməni mənşəli və onların çalışdığı kütləvi informasiya vasitələri, internet resurslarıdır: "Məqsədyönlü şəkildə gömrüklə bağlı hansı münasibətlərin qurulacağı, hansı ölkələrlə əlaqələrin tənzimlənəcəyi vurğulanmır, məsələnin yalnız Azərbaycan-Türkiyə münasibətlərinə xələl gətirəcəyi, eyni zamanda sərhədlərin açılacağı məsələsi gündəmə gətirilir. Təbii ki, bunlar təxribat xarakterli məlumatlardır. Çünki Türkiyə ən yüksək səviyyədə Ermənistanla sərhədlərin Azərbaycan ərazilərinin işğaldan azad olunmayacağı təqdirdə açılmayacağını bəyan edib". E.Mirzəbəyli qeyd edib ki, burada söhbət Gömrük İttifaqı ilə münasibətlərin genişlənməsindən gedirsə, bu daha çox Rusiya və Türkiyə münasibətləri ilə bağlı olan məsələdir, nəinki Ermənistanla: "Burada sadəcə olaraq sadələşdirilmiş gömrük keçidlərindən söhbət gedə bilər. Bu da hələ ehtimal olaraq ayrı-ayrı ekspertlər tərəfindən səsləndirilən fikirlərdir. Bu baxımdan hesab edirəm ki, bu cür məlumatların heç bir əsası yoxdur və reallaşacağı da mümkün deyil". Siyasi şərhçi əlavə edib ki, bu məsələdə ən narahatedici məqam "Reqnium", erməni mətbuatı və bu kimi agentliklərin məlumatlarının olduğu kimi tərcümə olunaraq Azərbaycan mediasında həqiqət kimi yayılmasıdır.

***Nailə Məhərrəmova***

# Əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri 0,5 faiz artıb




Yanvar-iyul ayları ərzində əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri 2016-cı ilin eyni dövrü ilə müqayisədə real ifadədə 0,5 faiz artaraq 4 milyard 444,7 milyon manat olub. Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildiriblər ki, hüquqi şəxslər tərəfindən əhaliyə 3 milyard 265,7 milyon manatlıq xidmət göstərilib ki, bu da xidmətlərin ümumi dəyərinin 73,5 faizini təşkil edib. Cari ilin yanvar-iyul ayları ərzində hər bir ölkə sakini orta hesabla 457,6 manatlıq və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə nominal ifadədə 37,7 manat çox müxtəlif ödənişli xidmətlərdən istifadə edib.

# Azərbaycan dövləti yeni iş yerlərinin yaradılması siyasətini yeni iqtisadi şəraitdə xüsusi diqqət mərkəzində saxlayır

*Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədr müavini Rauf Əliyevin yap.org.az-a müsahibəsi*

***- Rauf müəllim, məlumdur ki, dünyada mürəkkəb proseslər baş verir, bir çox ölkələrdə maliyyə-iqtisadi böhran hökm sürür. Belə bir şəraitdə Azərbaycanda həyata keçirilən sosial siyasətin əhəmiyyəti nədən ibarətdir?***



- Ümumiyyətlə, yeni iqtisadi kursun fonunda əsas götürülən başlıca prinsiplərdən biri sosial siyasətlə bağlıdır. Bu, o deməkdir ki, yenə də qəbul olunan hər bir qərarın, həyata keçirilən bütün tədbirlərin əsasında Azərbaycan vətəndaşı dayanır. Azərbaycanda sürətli inkişaf təbii olaraq bütün sahələrdə, o cümlədən sosial sferada da özünü ciddi şəkildə göstərir. Və bu, bir çox sosial proqram və layihələrdə real əksini tapıb. Əlbəttə, ölkəmizin iqtisadi qüdrətinin artması vətəndaşların sosial rifahının yüksəldilməsinə yönəlmiş layihələrin həyata keçirilməsinə zəmin yaradıb.

Bir sözlə, sosial sahədə ardıcıl şəkildə həyata keçirilən layihələr onu göstərir ki, Azərbaycan hökuməti əhalinin maddi rifah halının yaxşılaşdırılması və onların bütün sosial qayğılarla əhatə olunmaları üçün güclü maliyyə imkanlarına və islahatları dərinləşdirmək iradəsinə malikdir. Bu, ona dəlalət edir ki, hökumət ilk növbədə əhalinin rifah halının yüksəldilməsi üçün addımlar atır. Nəzərinizə çatdırım ki, neft hasil edən və ya mövcud durumdan əziyyət çəkən heç bir ölkədə belə sosialyönümlü addımlar atılmır. Bu fakt bir daha əyani şəkildə təsdiq edir ki, Azərbaycanda həyata keçirilən siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır.

***- Son illər ölkəmizdə yüz minlərlə yeni iş yeri açılıb. Bu amil sosial siyasətin əsas göstəricilərindən biridir...***

- Son illərdə dünyada müşahidə edilən mənfi proseslərin fonunda meydana çıxan əsas çağırışlardan biri işsizlik və yoxsulluqla bağlıdır. İqtisadi aktivliyin aşağı düşməsi, eləcə də müxtəlif regionlarda yaşanan münaqişələr və müharibələr fonunda ayrı-ayrı ölkələrdə iş yerləri kəskin şəkildə azalıb, yeniləri isə yaradılmır. Belə vəziyyətdə, təbii ki, insanların həyat səviyyəsi aşağı düşür, yoxsulluq artır, digər sosial problemlər meydana çıxır.

Sosial dövlət olan Azərbaycanda isə vəziyyət tamam fərqlidir. Ölkəmizdə iqtisadiyyatın sosialyönümlülüyünün təmin edilməsi prioritet hədəflərdən biri kimi müəyyənləşdirilib. Yəni respublikamızda iqtisadiyyatın inkişafına güclü şəkildə siyasi və maddi dəstək verilir, konkret məqsədlərə hesablanan proqramlar qəbul edilir. Ölkənin güclü iqtisadi inkişafı, maliyyə imkanlarının artması isə öz növbəsində sosial məsələlərin həllinə müsbət təsir göstərir. Bütün respublika boyu iqtisadi aktivliyin davamlı şəkildə artması fonunda insanlar layiqli iş yerləri ilə təmin olunurlar və buna paralel şəkildə də onların həyat səviyyəsi yüksəlir.

Azərbaycan dövlətinin sosialyönümlü iqtisadiyyat quruculuğuna və insanların layiqli iş yerləri ilə təmin edilməsinə göstərdiyi siyasi iradə öz müsbət nəticəsini verib. Həyata keçirilən məqsədyönlü tədbirlər sayəsində respublika üzrə işsizliyin səviyyəsini 5 faizədək aşağı salmaq mümkün olub ki, bu da dünyada ən yaxşı göstəricilərdən hesab olunur.

Ölkəmizdə insanların layiqli iş yerləri ilə təmin edilməsi kimi vacib sosial məsələnin həllində 2004-cü ildən bəri regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarının uğurla reallaşdırılmasının rolunu da xüsusi qeyd etmək lazımdır. Bəhs olunan Dövlət proqramlarına uyğun olaraq regionların tarazlı şəkildə inkişaf etdirilməsi, bölgələrin də iqtisadi güc amilinə çevrilməsi öz növbəsində çoxlu sayda yeni iş yerlərinin açılması ilə nəticələnib. Eyni zamanda, ölkə üzrə yaradılan yeni iş yerlərinin böyük əksəriyyəti bölgələrin payına düşür. 2014-2018-ci illəri əhatə edən müvafiq Dövlət Proqramının icrasının üçüncü ili ərzində ölkə üzrə ümumilikdə 148 mini daimi olmaqla, 190 minə yaxın yeni iş yeri açılıb. Azərbaycan dövləti yeni iş yerlərinin yaradılması siyasətini yeni iqtisadi şəraitdə də xüsusi diqqət mərkəzində saxlayır. 2017-ci ilin birinci yarısında ölkədə 122 min yeni iş yeri açılıb ki, onlardan 101 mini daimidir. Bu fakt bir daha təsdiqləyir ki, respublikamızda yeni iş yerlərinin açılması prosesi uğurla gedir.

Regionlarda yeni iş yerlərinin yaradılmasının başqa bir önəmini də xüsusi qeyd etmək lazımdır. Məlumdur ki, bir vaxtlar regionlarda yaşayış yeri üzrə iş tapa bilməyən insanlar,ələlxüsus da gənclər paytaxt Bakıya, digər iri şəhərlərə üz tutmaq məcburiyyətində qalırdılar. İndi ölkə üzrə bu mənfi tendensiya, demək olar ki, tam dayanıb. Bir tərəfdən, regionlarda kommunal xidmətlərin səviyyəsinin yüksəlməsi, mədəni mühitin təmin olunması, digər tərəfdən isə, bölgələrdə yaradılan yeni iş yerləri insanları,ələlxüsus da gəncləri doğulduğu bölgələrə möhkəm bağlayır.

Ölkəmizdə iş yerlərinin yaradılması ilə bağlı yeni hədəflər müəyyənləşdirilib. Uğurlu sosial-iqtisadi siyasət sayəsində Azərbaycanın əhalisi getdikcə artır. Ölkədə əhalinin artım tendensiyası ilə əlaqədar yeni iş yerlərinin yaradılması da daimi prosesə çevrilməlidir. Son illərin statistikası dövlət başçısının tapşırıqlarının uğurla yerinə yetirildiyini təsdiqləyir. Belə ki, respublikamızda yeni iş yerlərinin yaradılması prosesi əhalinin artım dinamikasını üstələyir.

***- Bəs sahibkarlara göstərilən dövlət qayğısı yeni iş yerlərinin yaradılmasında nə kimi rol oynayır?***

- Son 13 ildə özəl bölmənin davamlı şəkildə dəstəklənməsi və güclü milli sahibkarlar ordusunun formalaşdırılması Azərbaycanda həyata keçirilən məqsədyönlü iqtisadi inkişaf strategiyasının mühüm istiqamətini təşkil edib. Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu sahibkarlara qayğı siyasəti Prezident İlham Əliyev tərəfindən də eyni ardıcıllıqla davam etdirilir. Belə ki, dövlət başçısının siyasi iradəsinə uyğun olaraq özəl bölmə təmsilçilərinə həm siyasi cəhətdən, həm də maddi baxımdan hərtərəfli kömək göstərilir. Təkcə belə bir faktı vurğulamaq kifayətdir ki, 2004-cü ildən bu günə qədər respublikamızda sahibkarlara təxminən 2 milyard manatdan çox güzəştli şərtlərlə kreditlər verilib. Davamlı dövlət dəstəyi sayəsində ölkədə məşğulluqda və vergi daxilolmalarında özəl bölmənin çəkisi 70 faizi ötüb.

Yeni şəraitdə respublikamızda kiçik və orta sahibkarlıq subyektlərinin istehsal imkanlarının artırılması məqsədilə həyata keçirilən genişməzmunlu islahatlar özəl sektorun investisiya cəlbediciliyinin artmasına, sahibkarların yeni ideyalarını həyata keçirmələrinə və onların maddi imkanlarının daha da genişlənməsinə əlverişli iqtisadi mühit formalaşdırır. Ölkədə yaranmış yeni şəraitdə biznes mühitinin yaxşılaşdırılmasını təmin etmək məqsədilə vergi bazasının genişləndirilməsi yolu ilə sahibkarların vergi yükünün azaldılması, gömrük rəsmiləşdirilməsinin və bütün idxal-ixrac əməliyyatlarının tam şəffaf aparılması xüsusi aktuallıq kəsb edir. Bundan başqa, Prezident İlham Əliyevin siyasi iradəsi əsasında sahibkarlıq subyektlərində yoxlamalar 2 il müddətinə dayandırılıb, lisenziya tələb olunan fəaliyyət növlərinin sayı 59-dan 37-yə endirilib, lisenziyalar müddətsiz müəyyən edilib, dövlət rüsumunun məbləği Bakıda 2 dəfə, regionlarda isə 4 dəfə azaldılıb, lisenziyaların İqtisadiyyat Nazirliyi tərəfindən "ASAN xidmət" mərkəzlərində verilməsinə başlanılıb. Azərbaycan Prezidenti sahibkarlara siyasi dəstək göstərir, onlarla görüşür, problemlərini həll edir.

***- Rauf müəllim, Azərbaycanda yoxsulluğun minimuma endirilməsi istiqamətində də mühüm addımlar atılır. Bu baxımdan, əhalinin məşğulluğunun təmin olunması yönündə görülən işləri necə dəyərləndirirsiniz?***

- Ölkəmizdə iqtisadiyyatın sosialyönümlülüyünün təmin edilməsi, o cümlədən də yeni iş yerlərinin yardılmasının daimi prosesə çevrilməsi öz növbəsində yoxsulluğun 49 faizdən 5 faizədək aşağı düşməsi ilə nəticələnib. Azərbaycanın yoxsulluğun azaldılması istiqamətində əldə etdiyi nailiyyətləri statistik rəqəmlərdən də görmək mümkündür. Hazırda Azərbaycanda yoxsulluq qlobal yoxsulluq səviyyəsindən 3 dəfə aşağıdır. Ölkəmiz insan inkişafı indeksini MDB dövlətləri üzrə ən yüksək səviyyəyə çatdırıb, BMT-nin İnkişaf Proqramının hesabatında "yüksək insan inkişafı" ölkələri qrupunda yer alıb.

Əlamətdar haldır ki, ölkəmiz bir sıra çətinliklərlə müşayiət olunan yeni şəraitdə də özünün dərin məzmunlu sosial siyasətinə sadiqlik nümayiş etdirir. Respublikada əhalinin həyat səviyyəsinin yüksəlməsinə yönələn yeni sosial təşəbbüslər irəli sürülür, bu istiqamətdə bütün proqramlar uğurla yerinə yetirilir. Prezident İlham Əliyev milli valyutanın devalvasiyasından sonra əhalinin aztəminatlı təbəqəsinin alıcılıq qabiliyyətinin artırılması, milli valyutanın devalvasiyasının və qiymət artımının təsirlərinin azaldılması məqsədi ilə müxtəlif sosial ödənişlərin, o cümlədən əmək haqlarının, pensiyaların, müavinətlərin, təqaüdlərin və kompensasiyaların artırılması barədə 25-dən çox fərman və sərəncam imzalayıb. Dövlət başçısının müvafiq fərman və sərəncamları əsasında sosial ödənişlərin, əmək haqlarının, pensiyaların artımı 3,6 milyon nəfəri və ya ölkə əhalisinin 38 faizini əhatə edib. Bütün bunlar uğurlu sosial siyasətin konkret olaraq göstəriciləridir.

## Bu ilin 6 ayında Azərbaycana gəlmiş əcnəbilərin sayı açıqlanıb



Bu ilin yanvar-iyun ayları ərzində dünyanın 139 ölkəsindən 1203,7 min əcnəbi və vətəndaşlığı olmayan şəxs Azərbaycana gəlib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 24,5 faiz çoxdur. Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildiriblər ki, gələnlərin 31,2 faizi Rusiya Federasiyası, 21,2 faizi Gürcüstan, 15,0 faizi İran, 11,6 faizi Türkiyə, 3,7 faizi Birləşmiş Ərəb Əmirlikləri, 2,3 faizi Ukrayna, 14,9 faizi digər ölkələrin vətəndaşları, 0,1 faizi isə vətəndaşlığı olmayan şəxslər olub. Əcnəbi və vətəndaşlığı olmayan şəxslərin 13,3 faizi yanvar ayında, 12,8 faizi fevral, 20,4 faizi mart, 15,6 faizi aprel, 17,6 faizi may, 20,3 faizi isə iyun ayında ölkəyə gəliblər.

Körfəz ölkələrindən gələnlərin sayının daha çox olması bu dövrdə ölkəmizə gəlmiş xarici ölkə vətəndaşlarının sayının artmasına təsir edən əsas amil olub. Belə ki, Oman vətəndaşlarının sayı 16,0 dəfə, Küveyt vətəndaşlarının sayı 8,7 dəfə, Səudiyyə Ərəbistanı vətəndaşlarının sayı 6,0 dəfə, Qətər vətəndaşlarının sayı 6,0 dəfə, Birləşmiş Ərəb Əmirlikləri vətəndaşlarının sayı 4,4 dəfə, Bəhreyn vətəndaşlarının sayı 3,5 dəfə, İran vətəndaşlarının sayı 1,9 dəfə, İraq vətəndaşlarının sayı 1,8 dəfə artıb. Bu dövrdə Körfəz ölkələrindən ümumilikdə 263,5 min nəfər gəlib və Azərbaycana səfər etmişlərin ümumi sayında onların xüsusi çəkisi 21,8 faiz təşkil edib. Cari ilin yanvar-iyun ayları ərzində Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 14,8 faiz artaraq 51,2 min, MDB ölkələrindən gələnlərin sayı 17,7 faiz artaraq 438,3 min olub. 2017-ci ilin yanvar-iyun aylarında ölkəmizə gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər səfər zamanı daha çox yerüstü yol nəqliyyatından istifadə ediblər. Belə ki, bu nəqliyyat növündən istifadə edənlərin ümumi yekunda xüsusi çəkisi 51,9 faiz, hava nəqliyyatından istifadə edənlərin 47,6 faiz, su nəqliyyatından istifadə edənlərin xüsusi çəkisi isə 0,5 faiz olub.

## Rusiya ilə Azərbaycan arasında müdafiə sənayesi sahəsində əməkdaşlığın inkişafı məsələləri müzakirə edilib

Avqustun 22-də Rusiya Federasiyasının Moskva şəhərində keçirilən "ARMİYA-2017" Beynəlxalq Hərbi Forumda iştirak edən Azərbaycanın müdafiə sənayesi naziri Yavər Camalov Rusiyanın sənaye və ticarət naziri Denis Manturovla görüşüb. Müdafiə Sənayesi Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, görüşdə iki ölkə arasında müdafiə sənayesi sahəsində əməkdaşlığın inkişafı və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

# Bakıda Qlobal Gənc Liderlər Forumunun keçirilməsi Azərbaycanın dünyanın mərkəzi olaraq tanınmasını sübut edir

## Gənclərin forumdakı fəallığı yaxın gələcəyin formalaşdırılmasına da öz töhfələrini verəcək

***Bəlli olduğu kimi, Azərbaycanın Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə Bakıda Qlobal Gənc Liderlər Forumu keçirilməkdədir. Belə ki, dünyanın 50-yə yaxın aparıcı gənc lider və tədqiqatçısının, bir sıra nüfuzlu proqramların təmsil olunduğu forumda, gənc liderlərlə yanaşı, bir sıra ölkələrin sabiq prezidentləri, iş adamları nüfuzlu ali təhsil müəssisələrinin nümayəndələri, iri korporasiya rəhbərləri bir araya gələrək, qarşılıqlı dialoqlar qurmaqdadırlar. Eləcə də, toplantılar çərçivəsində keçirilən panel iclasları və qrup müzakirələrində gənc liderlər böyük siyasi təcrübəyə malik sabiq dövlət başçıları ilə interaktiv fikir mübadilələri apararaq, müxtəlif mövzular ətrafında fikir mübadiləsi aparmaqdadırlar. Ümumiyyətlə, Bakıda Qlobal Gənc Liderlər Forumunun keçirilməsi Azərbaycanın dünyanın mərkəzi olaraq tanınmasını sübut edir. Bütövlükdə isə Bakıda Qlobal Gənc Liderlər Forumunun keçirilməsi dünyanın Azərbaycan həqiqətlərinin, tarixinin daha yaxından müşahidə edilməsinə şərait yaratmağa əsaslı zəminlər yaratmaqdadır. Forumla bağlı səslənən müxtəlif fikirlər də, məhz sözügedən tədbirin nə dərəcədə əhəmiyyətli olmasını sübut etməkdədir.***

### Millət vəkili Aydın Mirzəzadə: "Bakı dünyanın diplomatik mərkəzinə çevrilib"



Bununla bağlı fikir bildirən millət vəkili Aydın Mirzəzadəyə görə, Bakıda keçirilən Qlobal Gənc Liderlər Forumu yaxşı mənada iddialı layihədir. Belə ki, hər bir ölkə Qlobal Liderlərin Forumunu keçirmək, bu məsələlərin müzakirə platformasına çevrilmək istəyər: "Azərbaycan isə bu forumu keçirməklə buna hazır olduğunu və bu gün Bakının dünyada diplomatik mərkəzlərdən birinə çevrildiyini sübut edir".

Azərbaycanda vaxtaşırı beynəlxalq miqyaslı tədbirlərin keçirildiyini deyən deputat, onu da qeyd edib ki, bu tədbirlər nəticəsində, dünyanın bir çox tanınan liderləri, ictimai xadimləri ölkəmizə səfər edirlər: "Səfər zamanı təkcə gündəlikdəki məsələlər müzakirə edilmir, eyni zamanda, Azərbaycanın inkişafı ilə də tanış edilir. Bununla da, Azərbaycanın inkişaf modeli digər ölkələr üçün bir nümunəyə çevrilir".

Aydın Mirzəzadəyə görə, məhz ölkəmizdə keçirilən beynəlxalq tədbirlərin nəticəsidir ki, Azərbaycana investisiya qoymaq istəyən şirkətlərin sayı çoxalır, ölkəmizə gələn turistlərin sayı durmadan artır: "Artıq Bakı çoxdilli, çoxmədəniyyətli bir şəhərə çevrilib. Azərbaycanın həm paytaxtı, həm də regionlarında mənzil almaq, burada iş qurmaq istəyənlərin sayı da durmadan artır. Bundan əlavə, universitetlərimizdə də xarici ölkə tələbələrinin sayının kəskin şəkildə artması gözlənilir. Bu günlərdə bildirildi ki, Azərbaycan təhsilinin flaqmanı olan Bakı Dövlət Universiteti üçün 7 min nəfərlik tələbə şəhərciyi salınacaq. Bu isə, Azərbaycan diplomu almaq istəyən xarici ölkə gənclərinin sayının durmadan artmasına səbəb olacaq".




Görünən də budur ki, artıq Azərbaycan bir çox sahələrdə beynəlxalq aləmin diqqətini cəlb edən mühüm beynəlxalq tədbirlər keçirir, dünya isə həmin tədbirlərin müsbət nəticələrini görür. Daha dəqiq desək, artıq Azərbaycan zaman-zaman beynəlxalq siyasət arealına müasir modellər təklif edir və bu modellər bütün mənalarda siyasi-ictimai brendə çevrilməkdədir.

### Latviyanın sabiq prezidenti Valdis Zatler: "Dünyada sülhün və sabitliyin bərqərar olmasına öz töhfəsini verən forumun böyük əhəmiyyəti var"

Forumun işinə qatılan xarici qonaqlar da bu tədbirin nə qədər əhəmiyyətli və vacib olması, xüsusilə də, Azərbaycanda keçirilməsi faktoruna toxunaraq, bildiriblər ki, Qlobal Gənc Liderlər Forumu müxtəlif düşüncəyə və baxışa malik insanların bir-biriləri ilə dil tapmasına, ortaq fikrə gəlməsinə kömək edir. Belə ki, Latviyanın sabiq prezidenti Valdis Zatlersə görə, bu cür tədbirlərin keçirilməsi dünyada sülhün və sabitliyin bərqərar olmasına öz töhfəsini verir: "Forumun böyük əhəmiyyəti var. Buraya toplaşanlar fikir və təcrübə mübadiləsi aparırlar. Onlar fərqli siyasi quruluşa malik ölkələrdən gəliblər. Beləliklə, bu forum müxtəlif düşüncəyə və baxışa malik insanların bir-biriləri ilə dil tapmasına, ortaq fikrə gəlməsinə kömək edir".

Latviyanın eks-prezidenti, onu da əlavə



edib ki, fikir mübadiləsi aparmaq, səmərəli, elmli debatlar quraraq nəticəli müzakirələr aparmaq problemlərin həllində ən yaxşı yoldur. "Məhz bu baxımdan, Qlobal Gənc Liderlər Forumu gənclərin təcrübəli insanlarla görüşdüyü yeni platformadır"- deyə Valdis Zatlers vurğulayıb.

### Azərbaycan-Türkiyə Evinin icraçı direktoru Toğrul Allahverdili: "Qarabağ həqiqətlərinin dünyaya çatdırılmasında dövlətlə xaricdə fəaliyyət göstərən Azərbaycan diasporunun birgə fəaliyyəti öz müsbət nəticələrini verir"

Azərbaycan-Türkiyə Evinin icraçı direktoru, Diaspor.az saytının rəhbəri Toğrul Al-

# Bakıda Qlobal Gənc Liderlər Forumunun keçirilməsi Azərbaycanın dünyanın mərkəzi olaraq tanınmasını sübut edir

## Gənclərin forumdakı fəallığı yaxın gələcəyin formalaşdırılmasına da öz töhfələrini verəcək

lahverdili də hesab edir ki, 21-24 avqust tarixində Bakıda Qlobal Gənc Liderlər Forumu keçirilməsi Azərbaycanın beynəlxalq nüfuzunun artması, Azərbaycan xalqının Mədəniyyətinin Azərbaycan həqiqətlərinin dünyada tanıdılmasında əhəmiyyətli rol oynayır. Onun sözlərinə görə, tədbirin Diaspora İş üzrə Dövlət Komitəsinin dəstəyi, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığıyla keçirilməsi forumu daha da önəmli edir. "Tədbirin məqsədi dünyanın müxtəlif ölkələrindən çoxlu sayda gənci bir araya toplayaraq, qarşıda duran məqsədlərə nail olmaq üçün onların fikir və düşüncələrini öyrənməkdir"-deyə qeyd edən Toğrul Allahverdiliyə görə, forumda dünyanın 50-yə yaxın aparıcı gənc lider və tədqiqatçısının, o cümlədən, "Şvarzman", "Rodos", "Fulbrayt", "Marşal", "Truman", "Mitcel", "Geyts" kimi nüfuzlu proqramların, Harvard, Oksford, Kaliforniya, Monpelye, London İqtisadi və Siyasi Elmlər Məktəbi, Toronto, Tsinxua, Leypsiq, Corctaun, Corc Vaşinqton, Sarbon, Sapienza, Con Hopkins, Pekin, Prinston, Kornell, Yel, Stanford, Braun, Kolumbiya, Liverpul, Paris İqtisadiyyat Məktəbi, Çikaqo, Notr Dam, Miçiqan, Rotterdam, Barselona universitetləri kimi dünyanın nüfuzlu ali təhsil ocaqlarının nümayəndələrinin, habelə, bir sıra gənc iş adamlarının qatılması əhəmiyyətli məqamlardandır.

Forumun mühüm amillərə söykənməsi həm də belə nəticəyə gəlməyə əsas verir ki, bu gün Azərbaycanın Ermənistanın işğal siyasətini ifşa etmək üçün həyata keçirdiyi siyasətin bir qanadının da diaspora və lobbi siyasəti ilə bağlıdır . Belə ki, yaxın keçmişdə azərbaycanlıları dünyada qəddar, irqçi kimi tanıtmağa çalışan erməni lobbisi bu gün çıxılmaz duruma düşüb. Çünki hazırda dünya ölkələrinin böyük əksəriyyəti Azərbaycanın tolerantlıq modelini yüksək qiymətləndirir, digər dövlətlər üçün nümunəvi səciyyə daşıdığını açıq şəkildə etiraf edir.

Azərbaycan-Türkiyə Evinin icraçı direktorunun fikirlərnə görə, bu, həm də o deməkdir ki, qəddar bir xalq tolerantlıq nümunəsi yarada bilməz: "Qeyd etmək istərdim ki , Qarabağ həqiqətlərinin dünyaya çatdırılmasında dövlətlə xaricdə fəaliyyət göstərən Azərbaycan diasporunun birgə fəaliyyəti öz müsbət nəticələrini verir".

### Türkiyənin keçmiş xarici işlər naziri Hikmət Çetin: "Bu forum həm Azərbaycan, həm bölgə, həm də dünya üçün çox önəmlidir"

"Qlobal Gənc Liderlər Forumu Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin reallaşdırdığı önəmli tədbirlərdən biridir. Gələcəyə baxmaq, problemlərin həllinə müxtəlif baxışlardan, nöqteyi-nəzərlərdən yanaşmaq lazımdır. Bu gün dünyamız bir çox problemlərlə qarşılaşıb. Elə problemlər var ki, həllini tapmayıb. Müharibələr, eləcə də, etnik, məzhəb qarşıdurmaları mövcuddur. Bəzi həll olunmamış problemlər var ki, onların həllində ümid gənclərədir. Ona görə də, gənclərə yol açmaq, onların gələcək liderlər kimi proseslərdə fəal iştirakına şərait yaratmaq çox önəmlidir". Bu fikirləri isə, mediaya açıqlamasında Türkiyənin keçmiş xarici işlər naziri Hikmət Çetin söyləyib. Onun fikrincə, Qlobal Gənc Liderlər Forumu dünyanın hər yerindən - Afrikadan, Asiyadan, Amerikadan və Avropadan gəncləri bir araya gətirərək onlara mühüm problemləri müzakirə etmək imkanı yaradır. "Daha yaxşı dünyanı qurmaq üçün nə etmək lazımdır?" sualını verən Hikmət Çetin vurğulayıb ki, dünyanın gələcəyi gənclərə bağlıdır və forum bu mənada, xüsusi əhəmiyyət ilə seçilir. O, gənclərin bacarığına inandığını bildirib: "Bu baxımdan, Qlobal Gənc Liderlər Forumu üzləşdiyimiz problemlərin həllinə böyük töhfə verəcək. Bu forum həm Azərbaycan, həm bölgə, həm də dünya üçün çox önəmlidir".



### ABŞ təmsilçisi Daniel Qoldstern: " Biz bu forumda qlobal siyasi məsələləri də öyrənməkdə maraqlıyıq"



Qlobal Gənc Liderlər Forumunda iştirak edən ABŞ təmsilçisi Daniel Qoldstern isə Bakıda keçirilən Qlobal Gənc Liderlər Forumunun gənclərin öyrənmələri üçün çox yaxşı platforma olduğunu qeyd edib. O, Azərbaycanda dünyanın müxtəlif ölkələrini təmsil edən gənclərlə görüşünü həyəcanverici olaraq qiymətləndirib və bildirib ki, bu, həm də fərqli baxışlara, mədəniyyətlərə malik insanlarla tanış olmaq deməkdir: "Biz bu forumda qlobal siyasi məsələləri də öyrənməkdə maraqlıyıq".

Bakı Forumu gənc liderlərlə səmərəli əməkdaşlığın daha da möhkəmləndirilməsi baxımından gözəl imkandır. Forumun daha bir əhəmiyyəti ondan ibarətdir ki, burada gənc liderlər təcrübəli insanlarla bir araya gələrək, aktual məsələləri müzakirə edirlər. O, əmin olduğunu bildirib ki, forumda aparılan fikir və təcrübə mübadilələri faydalı nəticələr verəcək".

Yeri gəlmişkən, Daniel Qoldstern və digər ölkələrdən gələn gənclərin bir çoxu Azərbaycana ilk dəfə səfər etdiklərini, Bakının gözəlliyinə valeh olduqlarını, insanların qonaqpərvərliyinin onlarda zəngin təəssüratlar yaratdıqlarını, ölkəmizdən yalnız müsbət enerji aldıqlarını bildiriblər.

### Azərbaycan dünya gənclərinin siyasət məktəblərinin başlanğıc nöqtəsi olaraq qiymətləndiriləcək

Ümumiyyətlə, qeyd etmək yerinə düşərdi ki, forumun əsas hədəflərindən biri həm də Azərbaycanın tarixi, müasir həyatı, və mədəniyyəti ilə bağlı həqiqətləri dünya ictimaiyyətinə çatdırmaqdır. Bu baxımdan da, yüksək etimada sahib olan insanların, eləcə də, gənc liderlərin Azərbaycana gəlməsi, bu mənada, ölkəmizin beynəlxalq aləmdəki yüksək reytinqinə əlavə təkanlar verir.

Beləliklə, irəli sürülən fikirlərdən və gələnən nəticələrdən təməlli olaraq belə bir fikir formalaşır ki, Bakıda Qlobal Gənc Liderlər Forumunun keçirilməsi Azərbaycanın dünyanın mərkəzi olaraq tanınmasını sübut edir, o cümlədən, dünya gəncləri gələcəyin liderləri olaraq öz siyasi karyeralarının əsas təməllərini də, məhz ölkəmizdə qoyurlar. Söz yox ki, bu seçim onların hər birinin yaxın gələcəkdə uğur əldə etmələri istiqamətində öz müsbət nəticələrini verəcək. Eyni zamanda, Azərbaycan dünya gənclərinin siyasət məktəblərinin başlanğıc nöqtəsi olaraq qiymətləndiriləcək.

**Rövşən NURƏDDİNOĞLU**

## Sabiq Prezident Petar Stoyanov: Azərbaycan çox gözəl, nadir və tolerant ölkədir



Mənim Azərbaycana xüsusi sevgim var. Azərbaycan çox gözəl, nadir və tolerant ölkədir. AZƏRTAC xəbər verir ki, bu fikirləri jurnalistlərə müsahibəsində Qlobal Gənc Liderlər Forumunda iştirak edən Bolqarıstanın sabiq Prezidenti Petar Stoyanov deyib.

Sabiq Prezident bildirib ki, Azərbaycanda müxtəlif dinlərə mənsub insanlar sülh şəraitində birgə yaşayırlar. Bu Forum kimi mühüm beynəlxalq tədbirlərin keçirilməsi üçün Azərbaycan əla məkandır. Hər dəfə Bakıya gələndə paytaxtınızın necə dəyişdiyinin şahidi oluram. Qlobal Gənc Liderlər Forumunun əhəmiyyətinə toxunan Petar Stoyanov vurğulayıb ki, gənc liderlər bizim gələcəyimizdir və buna görə də Forum çərçivəsində biz onlarla öz təcrübəmizi, ideyalarımızı, mövqelərimizi bölüşürük. Müzakirə olunan mövzuların aktuallığı, irəli sürülən yeni ideyalar, təkliflər, gənclərin fəallığı Forumun uğurlu nəticələr verəcəyini deməyə əsas verir.

## Ədliyyə naziri Zaqatalada vətəndaşları qəbul edəcək



Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Azərbaycan Respublikasının ədliyyə naziri Fikrət Məmmədov tərəfindən avqustun 25-də Zaqatala şəhərində vətəndaşların qəbulu keçiriləcək. Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Zaqatala şəhərinin Car küçəsi 1 ünvanında yerləşən Heydər Əliyev Mərkəzində keçiriləcək qəbulda Zaqatala, Balakən və Qax rayonlarından olan vətəndaşların ədliyyə fəaliyyəti ilə bağlı müraciətlərinə baxılacaq.

Vətəndaşlar qəbula Şəki regional ədliyyə idarəsi (ünvan: Şəki şəhəri, 20 yanvar küçəsi 94; əlaqə telefonları: (02424) 4-32-18, 055-634-85-15), habelə Ədliyyə Nazirliyinin 510-10-01 (əlavə 2104), 055-925-37-41 nömrəli telefonları, contact@justice.gov.az elektron poçt ünvanı vasitəsilə yazıla bilərlər. Eyni zamanda, vətəndaşların rahatlığı üçün ədliyyə nazirinin həmin gün keçiriləcək qəbuluna elektron qaydada birbaşa yazılmaq imkanı yaradılıb. Bu məqsədlə Ədliyyə Nazirliyinin elektron xidmətlər portalına (www.exidmet.justice.gov.az) müraciət etmək lazımdır.

# Mübariz Əhmədoğlu: "Ermənistanda nəinki Türkmənistan, heç İran mövzusunu bilmirlər"

***"Prezident Serj Sarkisyanın İran prezidenti Həsən Ruhani ilə görüşü ilə bağlı Ermənistan prezidentinin mətbuat xidmətinin yaydığı məlumatda Ermənistan-İran-Türkmənistan qaz və elektrik enerjisinin mübadiləsi mövzusunun müzakirə olunması barədə də informasiya öz əksini tapmışdı. Bu erməni siyasətçilərinə İranla, o cümlədən, Türkmənistanla əlaqələrə yeni PR xarakteri verməyə şərait yaratdı. Reallıq isə ayrı şeydir".***



Bunu açıqlamasında politoloq Mübariz Əhmədoğlu bildirib. M. Əhmədoğlu onu da qeyd edib ki, İran indi əvvəlki İran deyil: "Əvvəlki İran Azərbaycan Respublikasının düşmənçilik kimi qəbul edəcəyi regional layihələri reallaşdırmağa tabu qoymuşdu. Bizdə olan məlumata görə, bu tabu barədə Ermənistan rəhbərliyinə məlumat çatdırılıb. İran daxili siyasətini indiki geosiyasi reallıqları nəzərə almaqla yenidən qurur. Sepahçılarla prezidentin tərəfdarları arasında narazılığın mahiyyəti də budur. Belə vəziyyətdə bir qrup İran məmurunun davranışı özlərinin korporativ maraqları üzərində qurula bilər. Hər şey ali rəhbərin idarəçiliyi ilə baş verir. Görünür, İrandakı bu reallıqları Ermənistanda bilmirlər və ya bilmək istəmirlər. Ermənistanın istinad nöqtəsi İran daxilində baş verənlərdən çaş-baş qalmış bir qrup İran məmurdur. O məmurlar Ermənistan və Gürcüstan vasitəsilə Qrinkard və ya viza alıb ailə üzvlərini və mülklərini ABŞ-a köçürmüş məmurlar və bu prosesi reallaşdırmağa hazırlaşan məmurlardır. Beləleri H.Ruhaninin komandasında çoxdur. SEPAH-çılarla H.Ruhaninin komandası arasındakı mübarizə gec-tez onları da əhatə edəcəkdir. Müsəlman torpaqlarının işğalı mövzusu İranın ən yuxarı dairələrində Bəhram Qasimi kimilərinin dediyindən tam fərqlənir".

Politoloq onu da bildirib ki, İran Parlamentinin erməni deputatlarından biri Jorjik Abraamyan ermənilərinə Bəhram Qasiminin dediklərindən hayküy yaratmamağı tövsiyə edir: "J.Abraamyanın fikrincə, B.Qasiminin bəyanatından o nəticəyə gəlinməməlidir ki, İranın Ermənistana münasibəti yaxşı, Azərbaycana münasibəti pisdir. İranın iqtisadi və enerji kommunikasiyalarında əsas üz çevirdiyi dövlət Azərbaycandır. Bunu H.Ruhaninin bəyanatları və vitse-prezident İ.Cahangirinin yaxınlarda İranla Azərbaycan arasında dəmir yolu tikintisinə göstərdiyi münasibət təsdiq edir. Ermənilər İranın Rusiyadakı iki rəsmisinin bu mövzuda verdiyi bəyanatlara diqqət yönəltsələr, biliklərini müəyyən qədər artırmış olarlar. Türkmənistan mövzusu Ermənistan siyasi elitasının, ümumiyyətlə qavraya bilmədiyi mövzudur. Hal-hazırda Türkmənistan İrana qaz nəql etmir. İran qaz nəqlini dayandırdığına görə, əvvəllər Türkmənistanı ittiham edirdi, beynəlxalq məhkəmə ilə hədələyirdi. İndi İran Türkmənistana qarşı bu iddialarından əl çəkib. İranın Türkmənistan üzrə ticarət attaşesi Rəhmətullah Xormali yaxınlarda Türkmənistanın İrana qaz nəql edə bilməməsinin səbəbini dünya bazarında qazın qiymətinin dəyişməsi ilə əlaqələndirdi. Xormali vəziyyəti izlədiklərini bildirdi. Eləcə də, İran mərkəzdən Türkmənistanla həmsərhəd rayonlarına qaz kəməri çəkdi. İranın indi Türkmənistandan qaz almağa, nəinki ehtiyacı yoxdur, ümumiyyətlə şimal-şərq istiqamətində qazının nəqlinin yeni diverfisikasiyasını apardı və bu diverfisikasiya Ermənistanın ziyanınadır. Ona görə, ermənilərin Türkmənistandan İran vasitəsilə qaz almasına hava şarının partlaması kimi yanaşmaq daha düzgündür. Ermənistan prezidenti bu şarın partlaması ilə Rusiyanın qorxacağını düşünür. Avqustun 5-də H.Ruhani ilə görüşən S.Sarkisyan dəqiq bilirdi ki, avqustun 3-dən RF qaz kəmərinin təmiri adı ilə bir ay müddətinə Ermənistana qaz nəqlini dayandırıb. Səbəb siyasidir, Ermənistan ikibaşlı oyunlar oynayır. NATO-nun hərbi təlimlərində iştirak edir, ərazisində ABŞ və Britaniya hərbçiləri hərbi təlim keçirirlər. Beləliklə, S.Sarkisyanın bu şar partlayışı, ola bilər pis qoxusu ilə fərqlənsin. Amma İran bu şarın içinə tez alışan qaz da doldura bilər. Bu isə, onu partladanların əl və üzünü yandıracaq".

**RƏFİQƏ**

# Minsk Qrupunun həmsədrlər institutu fəaliyyətsizdir

***Təəssüflər olsun ki, bəzi beynəlxalq təşkilatlar, eləcə də, ayrı-ayrı dövlətlər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə ikili yanaşma nümayiş etdirirlər. Yəni onlar Krım, Abxaziya və Cənubi Osetiya münaqişəsinə sərt mövqe bildirdikləri halda, bunu Azərbaycanın işğal olunmuş ərazilərinə münasibətdə göstərmirlər.***



## *Qabil Hüseynli: "Dağlıq Qarabağ münaqişəsinin həll olunmasında böyük rol həmsədr dövlətlərin üzərinə düşür"*

"Səs" qəzetinə açıqlamasında politoloq Qabil Hüseynli bunun səbəbini xristian təəssübkeşliyi kimi qiymətləndirdi: "Nədənsə, post-sovet məkanındakı münaqişələrə münasibətdə bir standart, amma Dağlıq Qarabağ münaqişəsinə münasibətdə ikili standartlar tətbiq edirlər. Bunun kökündə də, uzun müddətdir ki, problemə verilən ilkin siyasi qiymətin hələ də inersiya gücü ilə bu ölkələrin xarici siyasət xəttində qalması və sözsüz ki, xristian təəssübkeşliyi də burada ciddi rol oynamaqdadır. Qərb ölkələri, xüsusi olaraq da, Dağlıq Qarabağ münaqişəsi ilə məşğul olan ölkələr tərəfkeşlik edirlər. Hər zaman beynəlxalq təşkilatlar Dağlıq Qarabağ münaqişəsinin həllində Ermənistanın qeyri-konstruktiv mövqe sərgiləməsinə susqunluq nümayiş etdirirlər. Yəni hələ də erməni təbliğatı və lobbisi bu məsələlərdə erməni təcavüzünün üstünü örtbasdır etməyə çalışır. Demək olar ki, işğalçı ölkə olan Ermənistan qeyri-konstruktiv mövqe tutmasında, Rusiyaya arxalanır. Ermənilər Fransadan və bəzi Avropa ölkələrindən də siyasi dəstək alırlar. ABŞ isə bu vəziyyətdə gah nala vurur, gah da mıxa".

Q.Hüseynli onu da bildirib ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli məsələsində Sarkisyan rejimi masa arxasında oturmaqdan imtina edir. Bu isə, münaqişənin sülh yolu ilə həllində qeyri-müəyyənliyin yaranmasına gətirib çıxarır: "Amma bu hal uzun müddət davam edə bilməz. indiki şəraitdə Ermənistanın bu davranışlarının qarşısının alınmasının yeganə yolu Ermənistana və onun siyasi rəhbərliyinə qarşı beynəlxalq hüququn prinsiplərinə söykənərək, müvafiq sanksiyaların tətbiq olunmasıdır. Hazırkı məqamda beynəlxalq güclər tərəfindən Ermənistana qarşı hər hansı bir sanksiyanın tətbiqi meydanda yoxdur. Nə qədər beynəlxalq hüququn ikili yanaşması davam edəcək və Ermənistana münasibətdə fərqli bir davranış ortaya qoyulacaqsa, işğalçı ölkə yaranmış cəzasızlıq şəraitindən sui-istifadə edərək, Dağlıq Qarabağ münaqişəsi ətrafında aparılan danışıqlar prosesinin davam etdirilməsinə imkan verməyəcək".

Politoloq onu da bildirdi ki, Dağlıq Qarabağ münaqişəsinin həll olunması ilə bağlı, artıq ATƏT-in Minsk Qrupu həmsədrləri uzun illərdi ki, fəaliyyət göstərirlər: "Amma bu illər ərzində həmsədrlər Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində irəliyə doğru hər hansı bir addım atılmayıblar. ATƏT-in Minsk Qrupunun həmsədrləri öz üzərlərinə düşən missiyanı yerinə yetirməlidirlər. Bir sözlə, Dağlıq Qarabağ münaqişəsinin həll olunmasında böyük rol həmsədr dövlətlərin üzərinə düşür. Amma ATƏT-in Minsk Qrupunun həmsədrləri Dağlıq Qarabağ münaqişəsini həll etmək əvəzinə, daha da uzadırlar. Minsk Qrupunun həmsədrlər institutu fəaliyyətsizdir. Bir sözlə, ortada həmsədrlərin gördükləri işin heç bir nəticəsi yoxdur. Sadəcə olaraq, onların bu səfərləri turist səfərlərindən fərqlənmir".

**GÜLYANƏ**

# "Zaman və məkan" adlı müsabiqə keçiriləcək




Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı "Zaman və məkan" adlı qısametrajlı sənədli filmlər üçün ssenari müsabiqəsi elan edib. İttifaqın mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, yaşı 35-ə qədər olan bütün şəxslər ssenari müsabiqəsində iştirak edə bilərlər..

Şərtlərə görə hər bir müəllif 3 ssenaridən artıq təqdim edə bilməz. Birinci yerin sahibinə 1500, ikinciyə 1000, üçüncüyə isə 500 manat məbləğində pul mükafatı veriləcək. Ssenari müsabiqəsinin keçirilməsində məqsəd kinematoqrafiya sahəsində gənclərin yaradıcılıq fəaliyyətini inkişaf etdirmək, gənc və istedadlı müəllifləri aşkara çıxarmaq, həmçinin milli kinomuza yeni fikir, yeni nəfəs gətirməkdir. Ssenarilər oktyabrın 31-nə qədər təqdim edilməlidir

# Bu il 250 nəfər əlil peşə hazırlığı və əlavə təhsil kurslarına cəlb edilib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi əlillərin məşğulluq imkanlarının artırılması və əmək bazarına çıxışının asanlaşdırılması məqsədilə peşə hazırlığı və əlavə təhsil kursları təşkil edir.

Nazirliyin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, bu ilin ötən dövrü ərzində nazirliyin xətti ilə əlavə olaraq 250 nəfər əlil əmək bazarında rəqabət qabiliyyətli peşələr üzrə hazırlıq və əlavə təhsil kurslarına cəlb olunub. Onlardan 180 nəfəri Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun 1 nömrəli Sağlamlıq İmkanları Məhdud Gənclərin Peşə Reabilitasiya Mərkəzinə qəbul edilib. Əlillərin qalan hissəsi isə nazirlik yanında Dövlət Məşğulluq Xidmətinin xətti ilə təşkil edilən peşə hazırlığı və əlavə təhsil kurslarına cəlb olunublar.

Həmin kurslarda əlillərə kompüter istifadəçisi və kompüter dizayneri, dərzi, bərbər, toxuculuq, xalçaçılıq, rəssamlıq, tikişçi, mühasib, qənnadçı və s. peşələr öyrədilib. Kursları başa vuranlara peşə sertifikatları alıblar və onların yiyələndikləri peşələr üzrə iş yerləri ilə təmin olunmaları üçün nazirliyin rayon və şəhər məşğulluq mərkəzlərinə tapşırıqlar verilib. Qeyd edək ki, bu ilin ötən dövründə Dövlət Məşğulluq Xidmətinin həyata keçirdiyi tədbirlər nəticəsində əlavə olaraq 300 nəfərdən çox əlil münasib işlə təmin edilib.

# Valideynlərin nəzərinə: paytaxtda məktəbli yarmarkaları təşkil olunub



Yeni tədris ili ərəfəsində paytaxtın müxtəlif ünvanlarında məktəbli yarmarkaları açılıb. Yarmarkalar sentyabrın 20-dək davam edəcək.

AZƏRTAC xəbər verir ki, paytaxt sakinlərinin artan tələbatını layiqincə ödəmək, süni qiymət artımının qarşısını almaq və əhalinin seçim imkanlarına şərait yaratmaq məqsədilə Bakı Şəhər İcra Hakimiyyətinin ticarət departamenti tərəfindən ilk dəfə məktəbli yarmarkaları təşkil olunub. İlkin mərhələdə belə yarmarkalar metronun "28 May", "Elmlər Akademiyası", "İnşaatçılar", "Nəriman Nərimanov", "Koroğlu" və "Neftçilər" stansiyalarının yaxınlığında təşkil edilib. Bunun üçün əhalinin sıx olduğu ərazilər nəzərə alınıb. Artıq iki gündür fəaliyyət göstərən yarmarkalardan əhali razılıq edir.

Yarmarkalarda məktəbli ləvazimatlarının geniş çeşidi təqdim edilir. Ən maraqlı məqamlardan biri də odur ki, məktəbli yarmarkalarında satılan malların məişət sertifikatı var. Bakı Şəhər İcra Hakimiyyətinin ticarət departamentinin əməkdaşları tərəfindən qiymətlərə və xidmətə ciddi nəzarət edilir.

# "Liderliyi necə öyrənmək olar?"

## *Qlobal Gənc Liderlər Forumu gənc liderləri sabiq və indiki dövlət başçıları ilə əlaqələndirən platformadır*

***Məlum olduğu kimi, avqustun 21-də Bakıda Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə Qlobal Gənc Liderlər Forumu işə başlayıb. Forumda dünyanın 50-yə yaxın aparıcı gənc lider və tədqiqatçısı iştirak edir. Həmçinin Şvarzman, Rodos, Fulbrayt, Marşal, Truman, Mitcel, Geyts kimi nüfuzlu proqramlar tədbirdə təmsil olunur.***

Harvard, Oksford, Kaliforniya, Monpelye, London İqtisadi və Siyasi Elmlər Məktəbi, Toronto, Tsinxua, Leypsiq, Corctaun, Corc Vaşinqton, Sarbon, Sapienza, Con Hopkins, Pekin, Prinston, Kornell, Yel, Stanford, Braun, Kolumbiya, Liverpul, Paris İqtisadiyyat Məktəbi, Çikaqo, Notr Dam, Miçiqan, Rotterdam, Barselona universitetləri kimi nüfuzlu ali təhsil ocaqlarının nümayəndələri, habelə, bir sıra gənc iş adamları da bu mühüm tədbirdə iştirak edirlər. Bundan başqa, foruma bəzi ölkələrin sabiq dövlət və hökumət başçıları, nüfuzlu ictimai xadimlər, habelə iri korporasiyaların rəhbərlərindən ibarət 20-yə yaxın ali səviyyəli qonaq da qatılıb.

Tədbir iştirakçıları "Mənə görə liderlik nədir?", "Liderliyi necə öyrənmək olar?", "Qadın və kişilər fərqli şəkildə liderlik edirlərmi?", "Mədəniyyətlər fərqli yol göstərir?" kimi suallar ətrafında fikir mübadiləsi aparılıb.

Söhbət etdiyimiz müsahiblərimiz Qlobal Gənc Liderlər Forumu gənc liderləri sabiq və indiki dövlət başçıları ilə əlaqələndirən, liderliyin bir çox meyarlarını tədqiq edən yeni platforma olduğunu bildirdilər.




### Azərbaycan Demokratik Tələbə-Gənclər Təşkilatının sədri
Asif Əsgərov:

- Son illər Azərbaycan dövlətinin, xüsusilə də, Prezident İlham Əliyevin uğurlu siyasətinin nəticəsidir ki, Azərbaycan təkcə idman sahəsində beynəlxalq tədbirlərin yox, gənclər siyasəti sahəsində də nüfuzlu beynəlxalq tədbirlərə ev sahibliyi etməyə başlayıb. Bu da Azərbaycanın həm regionda, həm də beynəlxalq aləmdə nüfuzunun artması ona olan etimad və inamla bağlıdır. Eyni zamanda, Azərbaycana olan dəstək və Azərbaycanın təcrübəsi ilə bölüşmək ənənəsinin artıq bir formalaşması ilə bağlıdır. Bu yaxınlarda, məhz Bakıda Qlobal Gənc Liderlər Forumunun keçirilməsi və bu foruma nüfuzlu keçmiş dövlət və hökumət başçılarının eləcə də, dünyanın nüfuzlu gənc liderlərin qatılması Azərbaycanın bir daha beynəlxalq aləmdə gənclər siyasəti, ümumiyyətlə, bu regional siyasət sahəsində nüfuzunun artması və imicinin yüksəlməsi ilə bağlıdır. Ümumiyyətlə, bütün bunlar Azərbaycanda uğurlu gənclər siyasətinin modelinin ortaya qoyulmasıdır. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan Azərbaycanın uğurlu gənclər siyasətinin modelini bu gün də Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən gənclər siyasətinin artıq bir ənənəyə çevrilməsi və bu ənənənin dünyanın müxtəlif ölkələri ilə paylaşmasına gətirib çıxarıb. Artıq bu gün Azərbaycanın gənclər siyasəti öyrənilmək və tətbiq olunmaq üçün bir necə ölkə tərəfindən diqqət mərkəzinə çevrilib. Bu, həm bizim yaxın çevrəmiz eləcə də digər ölkələr tərəfindən də bu addımlar atılmaqdadır. Bu addımlar bir daha Azərbaycanın nüfuzunun artmasına, Azərbaycana olan dəstəyin göstərilməsində, Azərbaycanın haqlı ədalətli mövqeyinin müxtəlif liderlər tərəfindən dəstəklənməsinə gətirib çıxaracaqdır.

### Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə İctimai Birliyinin sədri
Emin Həsənli:

- Azərbaycan son illər böyük forumlara ev sahibliyi edir. Bakıda Qlobal Gənc Liderlər Forumunun keçirilməsi Azərbaycanın dünyada nufuzlu və mədəniyyətlərarası dialoqda maraqlı ölkə olduğunu göstərir. Həm də bu cür beynəlxalq miqyaslı tədbirlərə ev sahibliyi etməklə ölkəmiz dünyanın problemlərinin həllində Azərbaycanın yeni baxış bucağı ortaya qoyduğunu və bu problemlərin birgə həllinə nail olmağa çalışdığını nümayiş etdirir. Bu gəclərin Azərbaycana gəlməsi və Azərbaycanı daha da yaxından tanımaları və təəssüratları əsasında beynəlxalq aləmdə ölkəmiz haqqında fikir yürütmələri baxımından, bu forumun əhəmiyyəti böyükdür. Bu baxımdan, forumun Bakıda keçirilməsi yüksək qiymətə layiqdir.

### Azərbaycan-Türkiyə Gənclərinin Dostluq Cəmiyyətinin sədri
Rəşxan Qaraşlı:

- Bakıda Qlobal Gənc Liderlər Forumunun keçirilməsi ölkəmizə verilən böyük önəmin və diqqətin nəticəsidir. Çünki bura ayrı-ayrı dövlətlərdən gələn gənclər öz ölkələrində nüfuzlu şəxsləri və keçmişdə siyasətçi olmuş insanların övladlarıdırlar. Bu gənclərin hər biri öz ölkələrində gənc liderdirlər. Azərbaycanı daha yaxından tanımaq imkanı əldə edirlər. Yəni gənclər ölkəmizi daha yaxından tanıyırlar və ölkəmizdə gedən inkişafı görürlər. Söz yox ki, son illər ölkəmizdə gedən geniş quruculuq və abadlıq işləri qonaqlarda böyük xoş təəssüratlar yaradır. Xüsusi olaraq da, azərbaycanlı gəclərlə tanış olurlar və bu da gələcəkdə əməkdaşlıq əlaqələrinin qurulmasında mühüm rol oynayacaq.

***GÜLYANƏ***

# Törətdiyi cinayəti gizlətmək üçün polisə yalan məlumat verən şəxs tutulub

***Avqustun 21-də Bakı şəhər sakini Bayram Mövludov Binəqədi Rayon Polis İdarəsinin 5-ci Polis Bölməsinə zəng edib rayonun S.Bəhlulzadə küçəsindəki evdə olarkən oraya gəlmiş 2 naməlum şəxs tərəfindən döyülməsi və 20 min manat dəyərində qızıl əşyaların aparılması barədə məlumat verib.***

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Binəqədi Rayon Polis İdarəsinin 5-ci Polis Bölməsinin əməkdaşları tərəfindən görülən tədbirlərlə qeyd edilən evin B.Mövludovun qohumuna məxsus olması, cari ilin 6 ayı ərzində Bayramın həmin evdən qızıl əşyalar oğurlayıb qızıl mağazasına sataraq 31 min 305 manat pul əldə etməsi və törətdiyi hadisəni gizlətmək üçün polisə yalan məlumat verməsi müəyyən edilib. Həyata keçirilən əməliyyat-axtarış tədbirləri ilə B.Mövludov tutulub.



# Güclü cəmiyyət, zəif müxalifət

RƏFİQƏ

***Bu gün bir çoxlarını belə bir sual maraqlandırır müxalifət varmı? Vaxtilə Azərbaycanda "çox güclü" olduqlarını iddia edənlər indi yox olmamaq üçün belə özlərində güc tapa bilmirlər. Xüsusilə də, bu seçkilər prosesində daha çox görünür. Hər bir normal, demokratik cəmiyyətdə vətəndaşların sosial fəallığının, siyasi yetkinliyinin hərarət və səviyyəsini müəyyənləşdirən meyarlardan biri, bəlkə də, öncülü seçki institutudur.***

Ölkədə keçirilən seçkilər zamanı dağıdıcı müxalifət düşərgəsində siyasi passivliklə müşahidə olunan kəskin böhran daha da dərinləşir. Son parlament seçkilərinin demokratikliyi seçkinin nəticələrini tanımayan müxalifət düşərgəsini daxili və xarici qınaqlarla üzləşdirdi. Bu fakt isə, özlüyündə hakimiyyət iddiasında olan müxalif düşərgənin az qala iki onilliyi əhatə edən səbətsiz siyasi fəaliyyətinin məntiqi nəticəsidir. "Ana" müxalifətçiliyə iddialı Müsavat və AXCP-nin parlamentdən kənarda qalması ilə nəticələnən seçkilər sübut etdi ki, ölkə vətəndaşı müxalifət liderlərinə etimad göstərmir, destruktiv və dağıdıcı siyasi qüvvələrin hakimiyyətə gəlmək istəyini dəstəkləmir. Siyasi partiyaların mübarizə tarixində qələbə çalmaq üçün onların yeniləşməsi, məzmun və forma etibarilə daha məhsuldar və effektiv gedişləri ehtiva edən yeni taktiki konsepsiya müəyyənləşdirməsi əsas şərt kimi dəyərləndirilir.

## Özgəsinin buğda süfrəsindən yalmanan pişik, məqam düşəndə, özününkünün qəsdinə duran çaqqala çevrilir

Son illər ərzində Müsavat və Xalq Cəbhəsi partiyalarının sıralarındakı "yarpaq tökümü"nə nəzər salmaq kifayətdir. Kimlər getmədi? Heç kəsə sirr deyil ki, bu gün dağıdıcı mövqe nümayiş etdirən müxalifət partiyaları maliyyə dəstəyini xarici dövlətlərdən alır, əlləri "qoca qitə"dən - Skandinaviyadan tutmuş okeanın o tayınacan səpələnmiş "dayı"larının cibindən çıxmır. Bu isə, birbaşa Azərbaycan dövləti və milli təhlükəsizliyinə təhdid və təhlükə mənbəyidir. El arasında nahaq yerə demirlər ki, özgəsinin buğda süfrəsindən yalmanan pişik, məqam düşəndə, özününkünün qəsdinə duran çaqqala çevrilir.

Bütün geridə qalmış seçkilər, bir daha göstərdi ki, müxalifətin artıq xalqa deyəsi heç bir sözü qalmayıb, o tükənib, aşınıb və köhnəlib. Belə bir uğursuz sonuc nəticə etibarilə müxalifətin səhnədən üzüsulu getməsini şərtləndirməli idi. Çünki cəmiyyət normal müxalifət və sivil mübarizə üsullarını tanıyır. Müxalifət ortaya dəbdəbəli bəlağətdən, quru boşboğazlıqdan, yazdığı donoslardan savayı bir iş qoysun, sarıdığı bir yaralı barmaq göstərsin. Məgər bu ölkənin onlara dəxli yoxdurmu?! Onlar son 25 ildə ölkədə keçirilmiş bütün seçkilərdə məğlubiyyətə uğrayıblar. Məğlub partiyalar isə, qəbul edilmiş siyasi davranış normalarına görə ya yeniləşməli, ya da tarixin arxivinə atılmalıdırlar. Təəssüflər olsun ki, bizdə nə birinci proses baş verir, nə də "əbədi gənc" təqaüdçülər siyasi səhnədən çəkilmək mədəniyyəti nümayiş etdirirlər. Müxalifətin əsas məqsədi cəmiyyətdə siyasi qüvvələr arasında sivil münasibətlər qurmaq, Azərbaycanın Avropanın, Qərbin demokratik cəmiyyətlərinə inteqrasiyası yolunda atdığı addımlarda iqtidara yardım göstərmək deyil, əksinə, iqtidarın uzun illər gördüyü işləri, çox gərgin fəaliyyət nəticəsində əldə etdiyi uğurları inkar etmək, öz çirkin məqsədlərinə nail olmaqdır. İndi onların nə əvvəlki tək zəif olaraq qalan sosial bazası, nə də müxalifətçiliklərinin uzanması səbəblərini izah edə biləcək ciddi arqumentləri qalıb. Ona görə də, onlar özlərini onları dəstəkləməyən güclü cəmiyyət üzvü hiss etsələr də, güclü cəmiyyət bu cür "müxalifəti" rədd edir...

# Peşəkar gigiyenist, səmimi insan

***Dünyaya göz acandan insan oğlu yoldadır. Yol axtarır, yol secir. İstedad, qabiliyyət onun özü ilə birgə dogulur və nəsildən-nəslə ötürülərək yaşayır. Mühit isə insanı formalaşdırır, isdedadın bütün parlaqlığı ilə üzə çıxmasına şərait yaradır.***



Qəniyev Qasım Məmmədtağı oğlu 1941-ci il yanvarın 29-da Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. Məsəl var deyərlər, ot kökü üstə bitər. Qasım müəllimin atası Azərbaycanın baytarlıq elminə böyük töhfələr vermiş, dünya baytarlıq elminin böyük alimi Azərbaycan Milli Elmlər Akademiyasının akademiki, 20-ci əsrin korifeylərindən olan Məmmədtağı Qasım oğlu Qəniyevdir. Belə bir mühitdə böyümüş Qasım Qəniyev elmə böyük maraq və xüsusən, tibb elminə hələ ğənc yaşlarında meyil gostərmişdi. Bunun nəticəsi kimi orta məktəbi bitirdikdən sonra 1960-cı ildə sənədləri Azərbaycan Tibb Universitetinə verib və qəbul olunub. 1966-cı ildə Azərbaycan Dövlət Tibb Universitetinin Sanitariya-gigiyena fakultəsini bitirdikdən sonra təyinatla Sumqayıt şəhər Gigiyena və Epidemiologiya Mərkəzinin Kommunal-Gigiyena Bölməsində həkim kimi işə başlamışdır. 1967-1970-ci illər Elmlər Akademiyası nəzdində Fiziologiya İnstitutunun aspirantı olmuş, 1970-1973-ci illər Virusalogiya, Mikrobiologiya və Gigiyena İnstitutunda kiçik elmi işçi kimi işləmişdir. Elmi-Tətqiqat İnstitutunda təcrübə toplayandan sonra o, praktiki sanitariya işinə özünü daha faydalı görmək istəmişdir və Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin göndərişi ilə 1973-1995-ci illər ərzində Nəsimi, Yasamal rayon Gigiyena və Epidemologiya Mərkəzlərində Əmək Gigiyenası və Ətraf Mühitin Mühafizəsi Bölməsində həkim və bölmə müdiri vəzifələrində çalışmışdır. Özünə qarşı çox tələbkar, məsuliyyətli dərin biliyə və zəngin təcrübəyə malik olan Qasım müəllim, bütün verilən tapşırıqları çox yüksək səviyyədə çalışıb icra edirdi. Belə ki, tibbi ocaqlarda, uşaq müəssisələrdə, məktəblərdə və digər idarələrdə geniş profilaktik tədbirlərin təşkil olunmasında şəxsən iştirak edib və həyata keçirib.

1995-ci ildən Səhiyyə Nazirliyinin təyinatı ilə Bakı şəhəri Səbail rayon Gigiyena və Epidemiologiya Mərkəzinə göndərilmişdir. Bir müddət Əmək Gigiyenası və Ətraf Mühitin Mühafizəsi bölməsində müdir vəzifəsində çalışmış, sonralar isə həkim-parazitoloq işləmişdir. İşlədiyi dövr ərzində kollektiv, həmkarların, habelə, onu tanıyan hər bir kəsin arasında, öz böyük qabiliyyəti və peşəkarlığı üzrə, yüksək nəcib insani keyfiyyətləri, sadəliyi, ziyalılığı ilə böyük hörmət və rəğbət qazanmışdır. İşlədiyi bütün yerlərdə nümunəvi işçi olmuş, öz bilik və bacarığı ilə neçə-neçə işə başlayan həkimə təcrübə dərsi vermiş, köməklik göstərmiş, örnək olmuşdur. Çox dəqiq və məsuliyyətli insan idi. Əmək intizamını çox sevərdi. Verilən tapşırıqları səlist və düzgün yerinə yetirər, aşkar olunan nöqsanların aradan qaldırılmasına çalışar, əhalinin sağlamlığı naminə profilaktik tədbirlərin həyata keçirilməsində fəal iştirak edərdi. Rayonumuzda müxtəlif təşkilatlar tərəfindən aparılan ictimai-siyasi tədbirlərdə aktivlik göstərərdi. 1995-ci ildən YAP-n üzvü idi, öz partiyasına sədaqətlə və fəal xidmət edirdi. 29.07.2011-ci ildə isə təqaüdə çıxmışdı.

Qasım müəllim ailəsinə də çox bağlı bir insan idi və cəfakeş, mehriban və qayğıkeş ata, sədaqətli həyat yoldaşı, bir qız və bir oğul atası, sevimli nəvələrin babası idi. O, nəvələri ilə vaxt keçirər, onların təlim-tərbiyəsi ilə, təhsili ilə sıx məşğul olardı. Övladlarının həyatda layiqli mövqe tutmasında öz valideyn borcunu əsirgəməmişdi.

Çox əfsuslar olsun ki, uzun sürən xəstəlikdən sonra amansız ölüm 28.07.17- ci il tarixində ömrünün 76-cı ilində bu gözəl insanı aramızdan apardı. Qasım Məmmədtagı oğlu Qəniyevin həmkarları, əzizləri, dostları, tanıyanları onun xatirəsini həmişə əziz tutacaqlar və kollektivimizin xatirəsində daim yaşayacaqdır.

Allah rəhmət eləsin!

***A.İ. İsmayılov,***
***Səbail rayon Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru***

# Kolleclərin ən yüksək və ən aşağı keçid ballı ixtisasları açıqlanıb

***Dövlət İmtahan Mərkəzi (DİM) "Abituriyent" jurnalının 10-cu nömrəsini nəşr edib. DİM-dən SİA-ya verilən xəbərə görə, "Abituriyent" jurnalının 10-cu nömrəsində 2017/2018-ci tədris ili üçün tam (11 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olmuş abituriyentlərin siyahısı, ixtisaslar üzrə müsabiqə nəticəsində alınmış minimal keçid balları Azərbaycan və rus dillərində təqdim olunub.***



Xatırladaq ki, tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq istəyən abituriyentlər müsabiqədə buraxılış (əvvəlki illərin məzunları iyulun 5-də keçirilən qəbul) imtahanında ana dili, riyaziyyat və xarici dil fənlərindən əldə etdikləri nəticələr əsasında iştirak ediblər. Buraxılış (qəbul) imtahanında hər bir fənn üzrə abituriyentlərə 30 test tapşırığı təqdim olunub. Müsabiqəyə ümumi balı 30-dan, Azərbaycan dili (rus dili) və riyaziyyat fənlərinin hər biri üzrə balı 8-dən az olmayan, xüsusi qabiliyyət tələb edən ixtisasların müsabiqəsinə isə ümumi balı 25-dən (fənlər üzrə bal məhdudiyyəti tətbiq edilməyib) az olmayan abituriyentlər buraxılıblar.Toplanıla biləcək maksimal bal 90 olub.

Müsabiqənin nəticələrinə əsasən, xüsusi qabiliyyət tələb etməyən ixtisaslar üzrə ən yüksək keçid balı 2 nömrəli Bakı Baza Tibb Kollecinin müalicə işi ixtisası (Azərbaycan bölməsi, DS) üzrə 76 bal, ən aşağı keçid balı isə Bakı Biznes və Kooperasiya Kollecinin turizm və onun təşkili ixtisası üzrə 41 bal (rus bölməsi, qiyabi ödənişli) olub

# Yerevanı yeni mitinq dalğası bürüyüb

## *Erməni ictimaiyyəti və siyasətçiləri Azərbaycanın heç vaxt Qarabağın müstəqilliyini tanımayacağını bildiriblər*

***Son günlər cəbhədə erməni silahlı birləşmələrinin yeni təxribatlara əl atmaları, nəticədə Azərbaycan Ordusu tərəfindən susdurulmaları Ermənistanda qorxu və vahimə yaradıb. Hələ ötən ilin aprelində baş verən və ərazilərimizin bir hissəsinin geriyə qaytarılması ilə nəticələnən "dördgünlük müharibə"dən sonra işğalçı qüvvələrin bu və ya digər şəkildə öz məğlubiyyətlərini xalqdan gizlətmək cəhdləri də nəticəsiz qaldı.***







İşğalçı ölkə çox yaxşı bilir ki, bu gün Azərbaycan Ordusu kifayət qədər güclü və qətiyyətlidir, döyüş qabiliyyəti yüksəkdir. Ordumuz, nəinki hansısa təxribatlara cavab verməyə, daha genişmiqyaslı döyüşlərə də hazırdır. Müdafiə Nazirliyi dəfələrlə işğalçı ölkəyə xəbərdarlıq edərək bildirir ki, erməni tərəfi bu cür təxribatları davam etdirərsə, düşmənə vurulacaq zərbə daha ağır və sərt olacaq. Ancaq işğalçı ölkəni idarə edən hərbi xunta isə, birmənalı şəkildə, başa düşməlidir ki, onun işğal etdiyi və üzərində oturduğu torpaq başqa bir dövlətə məxsusdur, bu torpağın sahibinin iradəsi burada əsas rol oynamalıdır. Ermənistan əhalisi də, artıq başa düşür ki, işğalçılıq siyasətinin sonu yoxdur. Çünki güclü Azərbaycan gücsüz Ermənistanla istənilən dildə danışa bilər.

Erməni mətbuatının yazdığına görə, son vaxtlar işğalçı ölkənin ordusundakı qətllərin və intiharların artması cəmiyyətdə kəskin narazılıqlar yaradır. Avqust ayının 13-də Müdafiə Nazirliyinin və hökumət binasının qarşısına toplaşan erməni vətəndaşlar övladlarının qatilinə çevrilmiş Sarkisyanın istefasını tələb ediblər. Etirazçılardan biri deyir ki, "oğlu xidmətdə olduğu hərbi hissədə yüksək rütbəli zabit tərəfindən öldürülüb. Həmin şəxs Serj Sarkisyanın yaxın qohumu olduğundan, cinayətkar cəzasız qalıb". Vətəndaşlar bildirirlər ki, oğulları hakim rejimin qurbanlarıdır. Onların övladları hərbi xidmətdən ya əlil kimi qayıdırlar, ya qətlə yetirilirlər, ya da intihar edirlər. Bu cür hallara son qoyulmasını istəyən valideynlər cəmiyyətə çağırış ediblər. Onlar tövsiyə edirlər ki, hər kəs oğullarını Ermənistan ordusundan yayındırsın. Əsasən də, gəncləri Qarabağa göndərməkdən çəkinməyə səsləyiblər. "Qarabağ bizim torpağımız deyil, uşaqlarınızı rejimin qurbanına çevirməyin", - deyə valideynlər bildiriblər.

## Ermənilər Sarkisyanın istefasını tələb edirlər

Erməni siyasətçisi Aram Amatuni bildirib ki, Sarkisyan həmişə narahatdır, ona görə ki, Azərbaycan həm iqtisadi, həm də ordu sahəsində çox güclüdür: "Azərbaycan hər an müharibəyə hazırdır. Azərbaycan tərəfi hər zaman erməni təxribatını gözləyir və düşmənə adekvat cavab verir və bundan sonra da belə olacaq. Bununla bağlı Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev öz sözünü deyib. Bildirib ki, işğal olunmuş torpaqları qısa zamanda azad edəcəyik. Çünki danışıqlar artıq nəticə vermir".

A.Amatuni bildirib ki, Sarkisyan qoşunların təmas xəttinə göndərməyə əsgər tapmır: "Bu gün Ermənistanda vəziyyət o həddə çatıb ki, təmas xəttinə əsgər göndərə bilmirlər. Hətta bunun üçün hər əsgərə 10 min dollar veriləcəyi vəd edilir. Buna baxmayaraq, heç bir erməni gənci Qarabağda xidmət etmək istəmir. Çünki ölmək istəmirlər. Eyni zamanda, əsgər itkisi cəbhə bölgəsində narazılığa səbəb olur".

Ekspert onu da bildirir ki, son 1 ildə Ermənistan ordusunda hər hansı köklü islahatlar aparılmayıb: "Heç bir islahat aparılmayıb. Yalnız Moskva "İsgəndər" raketlərini Ermənistanda yerləşdirib, bəzi texniki cihazlar qurаşdırılıb. Bununla, ordu güclənmir, yeniləşmə görüntüsü yaradılır. Guya həmin üsulla Azərbaycan Ordusuna tab gətirə bilərlər. Heç bir "İsgəndər" Azərbaycan əsgərinin Vətən sevgisini və şücaətini azalda bilməz. Onun qürurunu sındıra bilməz. Üstəlik, Azərbaycan Ordusunda "İsgəndər"lərdən dəfələrlə güclü silahlar var. Bunları S.Sarkisyan da bilir".

Əgər Sarkisyan hələ də eyni siyasəti yürüdəcəyini düşünərək, uzun müddət Ermənistanın prezidenti kimi qalacağını hesab edirsə, yanılır. Ən azından, ötən il baş verən aprel qələbəmiz onun yanılmasının məntiqi nəticəsidir. Görünür, belə davam edərsə, onda yenidən həmin dərsi verməyin vaxtı çatıb. Beləliklə, ermənilər ölkələrinin faşist rəhbərliyinin ölkəni uçuruma aparmaqdan, korrupsioner rəhbərlikdən öz canını qurtarmaq üçün Sarkisyanın istefasında israrlı olmalıdır.

***A.SƏMƏDOVA***

TƏRS BAXIŞ

# "Əhrar" sədri Müsavata görə AXCP-yə "zərbə" endirdi

*Vaqif Hacıbəylinin arxasında həm də qardaşları olan "hacıyevlər" qrupu dayanıb*



**Müsavat başqanı Arif Hacılının qardaşı, "Əhrar" partiyasının sədri Vaqif Hacıbəyli AXCP sədri Əli Kərimlini, növbəti dəfə hədəfə alaraq, ona qarşı ağır ittihamlar irəli sürüb.**

Əslində, bu kimi hücumlar və "zərbələr" adıçəkilən partiya sədri tərəfindən ilk dəfə vurulmur. Daha öncələr də Müsavat-AXCP qarşıdurmaları yaşanarkən, V.Hacıbəyli sərt ifadələrlə Ə.Kərimlini xəyanətdə və düşərgəni parçalamaqda suçlayıb. Bu dəfə də, məhz həmin qarşıdurmalar seriyasının davamı yaşanıb. Üstəlik, o, həbsdən çıxdıqdan sonra hələ də "Milli Şura" üzvü kimi qalmaqda davam edən, cibində Müsavat partiyasının vəsiqəsini gəzdirməsinə baxmayaraq, Cəbhə sədri Ə.Kərimli ilə yaxınlıq edən Tofiq Yaqublunu da "zərbələrə" məruz qoyub.

## "Əli Kərimlinin müxalifətin lideri statusu uğrunda apardığı mücadilə çoxsaylı tənqidlərə məruz qalsa da, həmin tənqidlər tamamilə təbiidir"

Məsələ ondadır ki, əslində, V.Hacıbəylinin AXCP sədrini ittham etməsində təəccüblü heç nə yoxdur. Çünki o, ilk növbədə, Müsavat partiyasının başqanı A.Hacılının, eyni zamanda, həmin siyasi təşkilatın aparıcı funksionerlərindən hesab edilən Mustafa Hacıbəylinin qardaşıdır. Ona görə də, qarşı cəbhədən - AXCP-dən hər hansı bir hücum baş verdiyi halda, o, dərhal siyasi baxışlarını müsavatçılığa yönəldərək, cəbhəçiləri özünə düşmən elan edir. Hətta T.Yaqublu timsalındakı Ə.Kərimliyə yaxınlıq göstərən müsavatçılar da onun aşkar düşmənlərinə çevrilir.

Xüsusilə 2018-ci ilin prezident seçkiləri ərəfəsində yenidən "canlanma" nümayiş etdirməyə çalışan müxalifətin dağıdıcı qanadı bu xüsusda daha kəskin qarşıdurmalara gedəcəklərini indidən göstərməyə başlayıblar. Bu baxımdan, qıcıqlandırıcı, hətta daha kəskin fikirlər irəli sürülür ki, bu da onlar arasında davam edən tarixi düşmənçiliyin bəlli nəticələridir. Məhz bu baxımdan, "Əhrar" sədri açıq-aydın yazır ki, AXCP sədrinin digər müxaliflər kimi hansısa seçkilərdə fərqlənmək şansı yoxdur: "Bu mənada, onun müxalifətin lideri statusu uğrunda apardığı mücadilə çoxsaylı tənqidlərə məruz qalsa da, həmin tənqidlər tamamilə təbiidir".

## "Təəccüb edirəm ki, Müsavat partiyasının başqanı nəyə görə müavinini hələ də bu postda saxlayır və ona etimad göstərir?"

Yuxarıda da qeyd etdiyimiz kimi, Müsavat partiyasının başqan müavini T.Yaqublunu da hədəfə alan V.Hacıbəyliyə görə, onun Müsavat başqanı olan qardaşı A.Hacılı çoxdan atılması olan addımını hələ də atmır, bu səbəbdən, o, buna təəccüb edir: "Təəccüb edirəm ki, Müsavat partiyasının başqanı nəyə görə müavinini hələ də bu postda saxlayır və ona etimad göstərir?"

Əslində, belə bir açıqlamanın verilməsi arxasında müəyyən razılaşmanın da olması mümkündür. Daha dəqiq desək, V.Hacıbəyli bu ifadələrini işlətməmişdən öncə, çox yəqin ki, A.Hacılı ilə müəyyən danışıqlar aparıb. Çünki o, yalnız Ə.Kərimlini və ona dəstək verən müsavatçıları hədəfə alsaydı, A.Hacılı isə həmin tənqiddən kənarda qalsaydı, fikirlər təbii görünməyəcəkdi. Çox yəqin ki, ona görə də, beş ittihamdan yalnız birini qardaşına tərəf yönəldib.

## Vaqif Hacıbəyli çox ehtimal ki, 2018-ci il öncəsi AXCP-yə və "Milli Şura"ya qarşı böyük savaşa başlayacağını gizlətmir

Beləliklə, sözünün sonunu "Milli Şura"ya, daha dəqiqi isə, AXCP sədri Ə.Kərimliyə tərəf yönəldən "Əhrar" partiyasının sədri bildirib ki, əgər Ə.Kərimli istəsəydi, bu qurumdan kənarda olan müxalifət partiyalarla da əməkdaşlıq edərdi, ancaq belə olan halda, "liderlik" edə bilməyəcəkdi: "Əgər müxalifətin "Milli Şura"da təmsil olunan hissəsindən başqa, kimlərsə onun siyasi liderliyini qəbul etsəydi, onda Ə.Kərimli "Milli Şura"da təmsil olunmayan qüvvələrlə də əməkdaşlıqda maraqlı olacaqdı. İndiki halda isə, onun siyasi maraqları tam idarəçiliyində olan "Milli Şura"dan başqa müxalifətin olmadığını iddia etməyə vadar edir".

Nəticədə, "Milli Şura"da olmayanları müxalifət hesab etmədiyini deyən Ə.Kərimlinin bununla digər müxalifətçiləri "satqın" kimi qələmə verməsini əsl xəyanət və satqınçılıq olduğunu bildirən V.Hacıbəyli çox ehtimal ki, 2018-ci il öncəsi AXCP-yə və "Milli Şura"ya qarşı böyük savaşa başlayacağını gizlətmir. Hər halda, o, bunu özbaşına etmir və arxasında Müsavatın "hacıyevlər" klanı dayanır.

**Rövşən RƏSULOV**

# Mehman Əliyev pul problemindən irəli gələn psixoloji sarsıntı keçirir

*Vergidən yayınan Mehman Əliyevin vergi cinayəti ilə yanaşı Vətənə xəyanət əməlləri də araşdırılmalıdır*

**Məlum olduğu kimi, Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti 7 avqust 2017-ci ildə "Turan" İnformasiya Agentliyinə qarşı cinayət işi açıb və ibtidai istintaqa başlayıb. Eyni zamanda, həmin departament avqustun 8-də agentliyin fəaliyyətinin səyyar vergi yoxlamasına başlayıb. Adıçəkilən departamentin fəaliyyəti isə agentliyə 2014-cü ildən etibarən təxminən 27 min manat (16 200 dollar) əlavə gəlir vergisi, əlavə avans ödənişləri və faiz borcları ilə birlikdə 37 min manatdan çox borc hesablanması haqqında qərara əsaslanır.**

Lakin hüquqi tələblərə baxmayaraq, agentlik vergi orqanlarının gəlir ölçüsünün kiçildilməsi ilə bağlı iddialarını qətiyyətlə təkzib edir, adıçəkilən qurumların əməllərini qanuna zidd və açıq-aşkar qərəzli hesab edir, bununla əlaqədar 1 saylı Bakı İnzibati-İqtisad Məhkəməsinə iddia ərizəsi ilə müraciət edib.



daşlıq edəcəyinə də şübhə ilə yanaşılmır.

Çünki bir neçə il öncə, həmin Mehman Əliyevin dövlətə qarşı formalaşdırılmış xarici qruplarla danışıqları da bunu isbatlayır. Belə ki, Ukraynada fəaliyyət göstərən Amerika fondlarından birinin nümayəndəsi ilə danışan M.Əliyevə bildirilirdi ki, Amerika növbəti prezident seçkilərinə qədər Azərbaycanda işləməyə qərarlıdır və hətta hakimiyyəti dəyişməyin belə, formalarını müzakirə etmək olar. Eyni zamanda, həmin danışıqda ən çox diqqət cəlb edən məqamlardan biri "demokratik inqilaba dəstək" ifadəsinin işlənməsidir. Ən sonda isə qarşı tərəf Mehman bəyə belə bir sual ünvanlayır: "İnqilab və maliyyə məsələləri haqqında telefon vasitəsilə danışmaq sizin üçün rahatdırmı?"

Yəni görünən odur ki, M.Əliyevin haralarasa işləməsini də hər kəs yaxşı bilir. Hər il yüz minlərlə dolların əlindən çıxmasına razı olmayan Mehman Əliyevin donosçuluqla, məişət məsələlərinin sosial-siyasi problem kimi qabardıb ölkənin imicinə zərbə vurmaqla Vətənə xəyanət etməsini də ictimaiyyət anlayır. Artıq M.Əliyevin "Vətənə xidməti" Vətənə xəyanət etməkdə görməsi və bunu həyat prinsipinə çevirməsi də gün kimi aydındır. Ona görə də, hakimiyyətə yönəldilmiş qeyri-obyektiv və reallıqdan tamamilə uzaq fikirlər Mehman Əliyevin pul problemindən irəli gələn psixoloji sarsıntısından xəbər verir.

Əlbəttə ki, həm agentliyin, həm də onun rəhbəri M.Əliyevin belə bir mövqe tutması anlaşılandır. Çünki bu günə qədər onun maliyyələşməsi və fəaliyyəti barədə soruşan olmamışdır. Lakin qanunvericiliyin tələblərinə uyğun olaraq araşdırmaların başlanması bir daha Mehman Əliyev haqqında olan fikirlərə diqqət yönəlir.

Ümumiyyətlə, M.Əliyevi mətbuat sahəsində kifayət qədər təcrübəsi olan bir jurnalist kimi müəyyən dairə tanıyır. Eyni zamanda, Azərbaycan ictimaiyyəti onun müxtəlif ölkələrdə narazılıqlar yaratmaq üçün maliyyə mənbəyi rolunu oynayan Soros Fondundan maliyyələşdiyini və bu fondda vəzifəyə təyin olunduğunu da bilir və bundan sonra da Mehman Əliyevin Azərbaycanda qarşıdurmaların olmasına çalışan qüvvələrlə əmək-

**"Səs" Analitik Qrupu**

# Bu gün paytaxtda hava günəşli olacaq



**Azərbaycanda avqustun 23-nə gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata əsasən, Bakıda və Abşeron yarımadasında hava günəşli olacaq. Şimal-şərq küləyi əsəcək, gündüz mülayim cənub-şərq küləyi ilə əvəz olunacaq. Havanın temperaturunun Abşeron yarımadasında gecə 23-26°, gündüz 32-37° isti, Bakıda gecə 24-26°, gündüz 35-37° isti olacağı gözlənilir. Atmosfer təzyiqi 758 mm civə sütunu, nisbi rütubət gecə 60-65, gündüz 40-45 faiz təşkil edəcək.**

Abşeron çimərliklərində dəniz suyunun temperaturu Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəhdə 25-26°, Zağulba, Buzovna, Mərdəkan, Şüvələnda 26-27°, Türkan, Hövsan, Sahil, Şıxda 27-28° isti olacaq.

Azərbaycanın rayonlarında hava yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 20-25°, gündüz 34-39° isti, dağlarda gecə 13-18°, gündüz 25-30° isti olacağı gözlənilir.

Naxçıvan Muxtar Respublikasında hava yağmursuz olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 17-22°, gündüz 35-40° isti olacağı gözlənilir.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında hava yağmursuz olacaq. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 13-18°, gündüz 25-30° isti olacağı gözlənilir.

Qazax, Gəncə, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında hava yağmursuz olacaq. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 19-24°, gündüz 32-37° isti olacağı gözlənilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 18-23°, gündüz 31-36° isti, dağlarda gecə 12-17°, gündüz 25-30° isti olacağı gözlənilir.

Mərkəzi Aran: Mingəçevir, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 20-25°, gündüz 34-39° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 23-25°, gündüz 31-36° isti, dağlarda gecə 15-20°, gündüz 27-31° isti olacağı gözlənilir.

# Arif Hacılı Almaniyadan "üzü qara" qayıdıb

*Cəmil Həsənli və Əli Kərimli Müsavat başqanına ciddi əngəllər yaradıb*

**Cəmiyyət tərəfindən qəbul olunmayan dağıdıcı müxalif ünsürlər və onun rəhbərliyi təmsil olunduqları partiya üzvləri tərəfindən də rədd edilirlər. Ziddiyyətlərin daha ağır olması bəzən qopmalara, kütləvi istefalara gətirib çıxarır. Bəzən elə istefalar olur ki, partiya rəhbərliyi üçün ciddi əngəllərə, hətta başağrısına çevrilir.**



Misal kimi, AXCP-dən istefa vermiş Paşa Umudovun və Kərim Mehdiyevin Əli Kərimli haqqında yeni ittiham xarakterli faktlar açıqlamaları hələ də mətbuat üçün müzakirə olunan mövzulardandır. AXCP sədrinin yeni faktlara susqunluq nümayiş etdirməsi P.Umudovun və K.Mehdiyevin haqlı olduqlarını göstərir. Diqqətçəkən məqam odur ki, Ə.Kərimlinin sıravi üzvlər tərəfindən küncə sıxşdırılması rəqib partiya sədrləri üçün ələ düşən fürsətə çevrilib. Müsavat yetkililəri əzəli düşmənləri olan cəbhəçilərə, xüsusilə də, Ə.Kərimliyə qarşı kompromat variantlardan istifadə edirlər. Deməк olar ki, A.Hacılının qardaşı Mustafa Hacıbəylinin rəhbərlik etdiyi "Bastan.info"da hər gün P.Umudovun və K.Mehdiyevin Ə.Kərimli haqqında açıqladıqları və ittihamları müxtəlif ekspertlərin şərhləri ilə təhlil edilməkdədir. Bütün hallarda son nəticə Ə.Kərimlinin haqsız çıxarılması ilə yekunlaşır. Yəni K.Mehdiyevin və P.Umudovun "Ə.Kərimli böyük dələduz, məhşur sehrbaz, oğru və fırıldaqçıdır" fikirləri A.Hacılının ətrafı tərəfindən dönə-dönə saytlarda və sosial şəbəkələrdə təqdim və təbliğ olunmaqdadır. Bu isə, tərəflərin önə çıxmaq yarışının daha sərt və amansız xarakter aldığını göstərir. Həm də onu nümayiş etdirir ki, Müsavat və AXCP funksionerləri ələ düşən fürsəti qaçırmaq fikrində deyillər. Məqam düşdükcə, birbirini əzib sıradan çıxarmaqdan çəkinmirlər.

## Arif Hacılı yenə də Əli Kərimlidən şübhələnir

Hazırkı məqamda Müsavatın AXCP-yə nisbətən öndə olduğu görünür. Amma "Milli Şura"nın sədri Cəmil Həsənli, dünən belə bir iddia ilə çıxış edib ki, Müsavat yetkililərinin pərdəarxası "Milli Şura" və AXCP-yə qarşı anti-təbliğat kampaniyası onların ziyanına işləyir. C.Həsənlinin bu ötkəm və özündən razı fikirlərini deyərkən, nəyə əsaslandığını demək çətin olsa da, "Milli Şura"dakı mənbənin bizimlə söhbətində dediyinə görə, C.Həsənli A.Hacılının alt-üst olan Almaniya səfərinə işarə vurub. Yəni A.Hacılının Almaniya səfərinin uğursuzluqla nəticələnməsində "Milli Şura"nın və AXCP-nin müəyyən rolunun olduğunu nümayiş etdirib. Həqiqətən də, A.Hacılının Almaniya səfərinin gözləntilərinin əksinə olaraq, biabırçılıqla nəticələnməsi müəyyən suallar doğurub. Daha doğrusu, Müsavat yetkililəri səfərin uğursuzluqla yekunlaşmasına görə, dərin təəssüf və narahatçılıq keçirməkdədirlər. Planlaşdırılan görüşlərin və toplantıların əksəriyyətinin baş tutmaması A.Hacılının istər Müsavat daxilində, istərsə də ki, xarici qüvvələr önündə rüsvayçı vəziyyətə düşməsinə əsas yaradıb. Hətta vəziyyət o dərəcədə A.Hacılı üçün ağır olub ki, saxta partiya vəsiqəsi verib Almaniyaya göndərdikləri mühacirlər də Müsavat başqanı ilə görüşməkdən imtina ediblər. Müsavat başqanının müavini Osman Kazımov A.Hacılının Almaniya səfərinin uğursuzluqla yekunlaşmasında Ə.Kərimlini və C.Həsənlini günahlandırıb. O, açıq şəkildə bəyan edib ki, A.Hacılının bir sıra görüşlərinin təxirə salınmasında "Milli Şura" rəhbərliyi xüsusi canfəşanlıq göstəriblər: "Bu məsələdə "Azadlıq" qəzetinin baş redaktoru Qənimət Zahidin də Berlindəki dostlarının xüsusi dəstəyi və rolu olub. Bu hörmətsizlik biz tərəfdən bağışlanmayacaq. Eyni zamanda, prezident seçkiləri ərəfəsi AXCP ilə Müsavat arasında münasibətlərin gərginləşməsinə xidmət edəcək. Baş verə biləcək ağır nəticələrə görə, məsuliyyət Ə.Kərimli üzərində qalacaq".

Bir sözlə, görünən odur ki, hər fürsətdə bir-birinə badalaq atmağa çalışan Müsavat və AXCP yetkililəri xaricə səfərləri zamanı belə düşmənçiliklərini unutmaq fikrində olmurlar. Bu isə siyasətdə analoqu olmayan rüsvayçılıq kimi dəyərləndirilir. Belələri ancaq qınaq və ittihamlara layiqdi ki, cəmiyyətdə haqlı olaraq, bu mövqedən çıxış edirlər.

**İ.ƏLİYEV**

# Siyasiləşmiş QHT-lər məsxərə obyektinə çevrilir

*Təhmasib Novruzov: "Leyla Yunus, Arif Yunus və Xədicə İsmayıl kimilər xarici ağaların əlində oyuncaq olan fiqurlardandır"*

**Son günlər müxalifətin "üz qarası" hesab olunan siyasiləşmiş QHT təmsilçilərinin müxtəlif açıqlamalar, bəyanat və çağırışlarla çıxış etdikləri müşahidə olunur. Bu isə, bu ünsürlərin xaricdən növbəti təlimat aldıqlarını göstərir.**



Daha doğrusu, siyasiləşmiş QHT-lərin əsas simalarından olan "Sülh və Demokratiya İnstitutu"nun rəhbəri Leyla Yunus xarici fondlardan aldığı tapşırıq əsasında yerli QHT-lərə növbəti layihə təqdim edib. Məhz bu layihə çərçivəsində hay-küy salan İntiqam Əliyev, Xədicə İsmayıl və digərləri bunun la diqqət mərkəzinə çevrilməyə çalışırlar. "Azadlıq" Hərəkatçılar Birliyinin sədri Təhmasib Novruzov "Səs" qəzetinə açıqlamasında dağıdıcı müxalifət və siyasiləşmiş QHT-lərin fəallaşmasını növbəti il keçirilməsi planlaşdırılan prezident seçkiləri ilə əlaqələndirdi: "Hər dəfə Azərbaycanda seçkilər keçirilən zaman müxalifət dediyimiz, əslində isə, xarici ağalarının diktəsi ilə hərəkət edən qüvvələr fəallaşır. Leyla Yunus, Arif Yunus və Xədicə İsmayıl kimilər xarici ağaların əlində oyuncaq olan fiqurlardandır. Demək olar ki, Azərbaycan dövlətinin inkişafına, stabilliyinə və beynəlxalq aləmdə artan nüfuzuna və bu günə qədər əldə etdiyi uğurlara qısqanclıq hissi ilə yanaşan xarici qüvvələr QHT-lər vasitəsi ilə müxalifətə külli miqdarda maliyyə yardımları ayırırlar. Yəni həmin xarici qüvvələr müxalif qüvvələri maliyyələşdirərək, onlardan bir alət kimi istifadə etməyə çalışır. Həmin xarici qüvvələr nə qədər müxalifətdən öz çirkin maraqlarının həyata keçməsi üçün istifadə etsələr də, yenə də heç vaxt ölkəmizlə bağlı öz məkrli istəklərinə çatmayacaqdır. Çünki onlar cəmiyyət tərəfindən qəbul edilmirlər".

"AXCP sədri Əli Kərimlinin mühafizəsinin rəisi və partiyanın ali məclisinin üzvü Kərim Mehdiyev Əli Kərimlini ifşa edən növbəti açıqlama ilə çıxış edib. Onu dələduzluqda, fırıldaqçılıqda və oğurluqda günahlandırıb. Əqidə dostlarının Ə.Kərimlidən üz döndərməsinin səbəbi nədir" sualına cavab olaraq, T.Novruzov bildirdi ki, AXCP sədri Ə.Kərimlidən əqidə dostlarının üz döndərməsinin başlıca səbəbi inamsızlıqdır: "Ümumiyyətlə, xoş sözlərlə, şirin-şirin vədlərlə, gözəl ibarəli çıxışlarla, nitqlərlə bəzən insanları müəyyən dövrə və müddətə ələ almaq və onlarda müəyyən inam yaratmaq mümkündür. Lakin heç bir fakta, heç bir konkret fəaliyyətə əsaslanmayan bu cür çıxışlar gec-tez ifşa olunur və hər kəs də bunu görür. Demək olar ki, artıq Ə.Kərimlinin iç üzü, bütövlükdə cəmiyyət üçün, o cümlədən, özünün silahdaşları və partiyadaşları üçün də açılıb. Artıq Ə.Kərimlinin iç üz qalmayıb və kimliyi də hər kəsə məlumdur. Bir sözlə, maska elə bir şeydir ki, o, daimi taxılıb qala bilməz. İstər-istəməz hansısa bir məqamda maskanın bir tərəfi yırtılır və o yırtılan tərəfdən də həqiqətin iç üzünü görürsən. Demək olar ki, 1990-cı illərdən bu yana Ə.Kərimli müxtəlif QHT-lər yaradaraq, bu xətlə xarici havadarlarından milyonlarla maliyyə vəsaiti əldə edib. Ancaq əldə etdiyi həmin maliyyə vəsaitindən heç birindən həmin QHT-lərə verməyib, ancaq özünə xərcləyib".

**GÜLYANƏ**

# Rəsul Quliyevin açıqlaması yenidən aranı qarışdırıb

*<u>Eks-spiker:</u> "Azərbaycan müxalifətinin xəmiri 1988-ci ildən mayasız yoğrulub"*

**Uzun illərdir Amerikada mühacirət həyatı yaşayan eks-spiker Rəsul Quliyev son vaxtlar müxalifətin 2018-ci ildə keçiriləcək seçkilərə, guya yeni planla qatılacaqlarını bildirməsinə hiddətini nümayiş etdirib. Bildirib ki, "gərək adamda abır-həya ola, mən də bu badbaxtlardan gör nəyi tələb edirəm?"**



Eks-spiker onu da vurğulayıb ki, müxalifətin bütün seçkilərdə məğlub olmasının səbəbi elə müxalifət liderlərinin yarıtmaz siyasət aparmalarıdır: ""Milli Şura" adlanan amorf bir təşkilatda satqın, xəyanətkar Əli Kərimli və bu gün xalqa xidmət edən bir tələbə belə yetirməmiş, heç kimin oxumadığı, sifarişlə yazılmış kitablarına görə özünü "professor" adlandıran psixikası pozulmuş xəstə Cəmil Həsənli və digərləri utanıb-xəcalət çəkmirlər, yenə də seçkilərə qatılmaq istəyirlər".

R.Quliyevin sözlərinə görə, bu, o satqınlardır ki, mühacirətə gedəndən sonra müxalifət liderləri xaricə səfər edərkən mənimlə də görüşlər keçirirdi: "Sonra bunların iç üzünü gördüm. Siyasi çevrələrdə belə iddialar səslənirdi ki, məhz R.Quliyev bəzi müxalifət birliklərinin dağılmasına səbəb oldu və bununla da, belə görüşlərə son qoydum. Həqiqətən, belə düşünənlər varsa, var - Ə.Kərimli, C.Həsənli, Müsavatın mafioz başqanı Arif Hacılı... və bu kimilər ifrat primitiv ağıla mənsub olanlardır".

R.Quliyev ilk gündən formalaşmamış müxalifətin bir-birinə nifrəti olduğunu da bildirib: "1988-ci ildə hələ formalaşmamış müxalifət bir-birinə nifrət bəsləyən müxtəlif qruplara bölünmüşdü. Belə düşüncəsiz, xəstə təxəyyüllü, hər biri də özünü "güclü lider" sayanlardan nə gözləmək olar? Bir-birinə nifrət etmək bu günədək sürür. Mən 1988-ci ildən Nemət Pənahli ilə tanış idim və mitinqlərlə əlaqədar onunla əlaqə saxlayırdım. 1990-cı ildən Əbülfəz Elçibəy, Etibar Məmmədovla çox yaxın münasibətlərim var idi və hər bir məsələni detalları ilə müzakirə edirdik. Bu gün onlar hardadır? Bu adamlar 10 illərlə institutlarda kiçik elmi işçilər olmuş sıfır təcrübəli, sıfıra yaxın intellektli, ancaq yaxşı şüar deyən, ağlasığmaz ambisiyalar ilə hər seçkidə "varlıqlarını" göstərmək istəyirdilər. Bu insanları, dediklərindən fərqli olaraq, nə demokratiya, nə ölkənin inkişafı, nə də işğal olunmuş torpaqları azad etmək maraqlandırırdı. Bu maraqlar ancaq boğazdan yuxarı sözlər və şüarlarla qurtarırdı. Bu insanları maraqlandıran yeganə məsələ birdən, təsadüfən, gözlənilmədən bu hökumət yıxılarsa, "necə birinci hakimiyyəti ələ keçirə bilərəm" məsələsi idi. Bu insanların birliyi mümkün deyil".

Eks-spiker onu da bildirib ki, müxalifət partiyaları, bütün seçkilərdə olduğu kimi, bu seçkilərdə də yenə də həyasızlıq edərək, öz məqsədlərinə çatmaq üçün istənilən yalanı, böhtanı demək, başqalarını aldadıb kələk gəlmək və sair yaramazlıqlar etməyə qadirdilər: "Bu, o müxalifətdir ki, yaramazlıqlar ideologiyası sıfıra bərabərdir və olanların hamısı nəinki seçkidə iştirak etməli, bir nəfər kimi istefa verib getməlidirlər".

**Rəfiqə HÜSEYNOVA**

# Azərbaycan Xalq Cümhuriyyəti hökuməti

***İstiqlal Bəyannaməsi elan edən Azərbaycan Milli Şurası AXC, ilk hökumətini təşkil etməyi Şuranın üzvü, bitərəf Fətəli Xan Xoyskiyə tapşırdı. Ali icraedici hakimiyyət Müvəqqəti Hökumətə məxsus idi. Müvəqqəti Hökumət Azərbaycan Milli Şurası qarşısında məsul idi.***

Fətəli Xan Xoyskinin təklif etdiyi Nazirlər Şurasının tərkibi təsdiq edildi. "Azərbaycan Demokratik Respublikası: Azərbaycan hökuməti (1918-1920)" kitabında göstərilir ki, Müvəqqəti Hökumət lazımi hazırlıq işləri gördükdən, ilk növbədə, Azərbaycanın öz istiqlaliyyətini elan etməsi və Azərbaycan Respublikasının müvəqqəti paytaxtının Gəncə şəhərində yerləşməsi haqqında dünyanın əsas siyasi mərkəzlərinə rəsmi bəyanət göndərdikdən sonra Gəncəyə köçdü. Lakin burada müxtəlif irticaçı qüvvələr Azərbaycan Milli Şurası və Müvəqqəti Hökumətin işini pozmağa cəhd etdilər. İyunun 17-də Milli Şuranın müvəqqəti buraxılması və bütün qanunverici hakimiyyətin Müvəqqəti Hökumətin əlində cəmləşməsi haqqında qərar qəbul edildi. Qərarda deyilirdi: "Azərbaycanın keçirməkdə olduğu müşkülati-daxiliyyə və xariciyyəni nəzəri-etinayə alaraq, Azərbaycan Şurayi-Millisi bütün hüquq və səlahiyyətini Fətəli xan Xoyski təhti-sədarətində təşəkkül edən kabinəyə həvalə və məzkur kabinəyi arayi-ümumiyyə üzərinə müstənəd bilətəxir Məclisi-müəssisan dəvət oluncaya qədər Azərbaycan həqqi-hakimiyyətini kəndi əlində bulunduraraq, kimsəyə tərk etməməyə müvəzzəf edir". Elə buradaca Müvəqqəti Hökumətin hüquq və vəzifələrinin ümumi istiqamətləri göstərilirdi. Müvəqqəti Hökumət hər vasitə ilə Azərbaycanın müstəqilliyini qorumalı, siyasi azadlıqlar, torpaq və başqa vacib qanunları ləğv etməmək şərtilə, qalan məsələlərin həllində tam ixtiyar sahibi idi. Müvəqqəti Hökumət, 6 aydan gec olmayaraq, Müəssisələr Məclisinə seçkilər keçirib, hakimiyyəti ona təhvil verməli idi.

Nazirlər Şurasının tərkibində bəzi dəyişikliklər edildikdən sonra, yeni kabinə işə başladı. İyunun 19-da Azərbaycanda hərbi vəziyyət elan edildi. Bakı quberniyası Xalq Komissarları Sovetinin Gəncə üzərinə hazırladığı hücumu dəf etmək və daha sonra Qafqaz İslam Ordusunun köməyilə Bakını azad etmək üçün milli qoşun hissələrinin yaradılması sahəsində əməli işlər başladı. Sonrakı aylar Müvəqqəti Hökumətin Azərbaycanın paytaxtına sahib olması uğrunda mübarizəsinə həsr edildi.

Bakı uğrunda mübarizə aparmaqla yanaşı, Müvəqqəti Hökumət dövlət aparatı qurmaqla məşğul idi. Bu sahədə ən böyük problem milli kadrların çatışmaması ilə bağlı idi. Çar zülmünün Azərbaycana vurduğu ən böyük zərbələrdən biri - dövlət aparatına yerli müsəlman əhalinin yaxın buraxılmaması özünü kəskinliyi ilə hiss etdirirdi. Yeni yaranmış dövlət orqanları məmurlarının xeyli hissəsini qeyri-yerli millətlərin nümayəndələri təşkil edirdi. Odur ki, Nazirlər Şurasının 1918-ci il 27 iyun tarixli fərmanında deyilirdi: "Dövləti lisan türk dili qəbul edilərək, irəlidə bütün məhkəmə, idareyi-daxiliyyə və sair dəvair vəzifələri başında duranlar bu lisanı bilənlər olana qədər hökuməti müəssisələrdə rus dili istimalına müsaidə edilsin". İki il ərzində dövlət orqanlarının işinin tamamilə ana dilinə keçməsi nəzərdə tutulurdu. İctimai həyatın başqa sahələrinin də milliləşdirilməsinə başlandı.

Müvəqqəti Hökumətin diqqəti cəlb edən işlərindən biri də avqust ayında yaradılmış Fövqəladə Təhqiqat Komissiyası idi. Bu komissiyanın funksiyasına yerli əhaliyə qarşı vəhşiliklərin, o cümlədən, mart qırğınlarının dəqiq öyrənilməsi, günahkarların müəyyən edilməsi və onların məhkəməyə verilməsi daxil idi. Komissiyanın təhqiqatları cəmləşdirilib, əsas Avropa dillərində çap olunmalı və yayılmalı idi.

Ölkənin iqtisadi həyatını qaydaya salmaq üçün dağıdılmış dəmir yolunun bərpa edilməsinin böyük əhəmiyyəti var idi. Dəmir yolunun bərpası ilə yanaşı, bir neçə ay ərzində poçt-teleqraf işləri də qaydaya düşdü, Gürcüstan ilə birlikdə müvəqqəti bon buraxıldı, bu, ölkənin maliyyə vəziyyətini bir qədər sabitləşdirə bildi.

Bakı uğrunda mübarizə və Müvəqqəti Hökumətin öz hakimiyyətini bütün Azərbaycanda təsbit etməsi sentyabrın 15-dək çəkdi. Bu ərəfədə Müəssisələr Məclisinin çağırılması sahəsində işlərə başlamaq üçün Nazirlər Şurasının sədri, daxili işlər naziri və xalq maarifi nazirindən ibarət komissiya yarandı. Bu komissiyanın öz işini sürətləndirdiyi və ümumiyyətlə, dövlət quruculuğu işinin genişləndiyi bir şəraitdə Azərbaycanın beynəlxalq vəziyyəti kökündən dəyişmiş oldu. Dünya müharibəsinin bitməsi ilə Antanta adından Britaniya qoşunları Bakını tutmalı idi. Düşmənin Bakını işğal etmək planına müqavimət göstərmək iqtidarında olmadığından, öz işini bərpa etmiş Azərbaycan Milli Şurası və Müvəqqəti Hökumət ingilislərin şəhərdə yaratdığı işğal rejimi şəraitində Azərbaycanın istiqlaliyyəti uğrunda mübarizəni davam etdirdi.

"Azərbaycan tarixi" kitabında Müvəqqəti Hökumətin tərkibi və qəbul etdiyi qətnamələrdən və siyasi fəaliyyətindən bəhs edilir: Müstəqil Azərbaycanın birinci hökumətinin tərkibi belə idi:

Nazirlər Şurasının sədri və daxili işlər naziri - F.X.Xoyski;

Hərbi nazir - X.Sultanov;

Maliyyə və xalq maarifi naziri - N.Usubbəyov;

Xarici işlər naziri - M.H.Hacınski;

Yollar, poçt və teleqraf naziri - X.Məlikaslanov;

Ədliyyə naziri - X.Xasməmmədov;

Əkinçilik və əmək naziri - Ə.Şeyxülislamov;

Ticarət və sənaye naziri - M.Y.Cəfərov;

Dövlət nəzarəti naziri - C.Hacınski.

1918-ci il mayın 30-da böyük dünya dövlətlərinin xarici işlər nazirlərinə Azərbaycan istiqlaliyyətinin elan olunması haqqında F.X.Xoyskinin imzası ilə teleqram göndərildi. İyunun 4-də isə Azərbaycan Respublikası ilə Osmanlı İmperiyası arasında dostluq müqaviləsi imzalandı.

İyunun əvvəllərində Tiflisdən Gəncəyə köçən Azərbaycan hökuməti çox ciddi daxili və xarici problemlərlə üzləşdi. Bu vaxt artıq Nuru paşanın rəhbərlik etdiyi türk hərbi mütəxəssislərindən ibarət 300 nəfərlik qrup Gəncədə idi.

Gəncədə Milli Şuraya qarşı çox güclü müxalifətin olduğu aşkara çıxdı. Azərbaycan burjuaziyası və mülkədarlarının müəyyən dairələrinin fikrincə, Milli Şura və onun yaratdığı hökumət həddən artıq sol və inqilabi mövqelərdə dururdu. "İlhaq" - Azərbaycanın Türkiyəyə birləşdirilməsinin tərəfdarı olan bu dairələr, Nuru paşanı da öz tərəflərinə çəkərək, onun nüfuzundan Milli Şuraya qarşı mübarizədə fəal istifadə edirdilər. Məhz onların təkidi ilə Nuru paşa Milli Şura üzvlərini qəbul etməkdən imtina etdi. Milli Şuraya etimadsızlıq aktı olan bu hərəkət ciddi siyasi böhrana gətirib çıxardı. Həmin günlərdə, əslində, Azərbaycan istiqlaliyyətinin müqəddəratı həll olunurdu, çünki "ilhaqçı"lar ictimaiyyət arasında da müəyyən nüfuza malik idilər.

1918-ci il iyunun 17-də toplanmış Milli Şura qızğın mübahisələrdən sonra iki qətnamə qəbul etdi:

1. "Müvəqqəti Hökumətin hüquq və vəzifələri haqqında" - "Müvəqqəti Hökumət dövlət müstəqilliyini və mövcud siyasi azadlıqları ləğv etmək, aqrar islahat və digər mühüm məsələlər barəsində qanunları dəyişmək səlahiyyətinə malik deyildir və yaxın altı ay ərzində Ümumazərbaycan Müəssislər Məclisinin çağırılmasını təmin etməlidir. İdarəetmənin digər məsələlərində hökumət tam sərbəstdir".

2. "Milli Şuranın buraxılması haqqında" - "Azərbaycanın ağır daxili və xarici vəziyyətini nəzərə alaraq, bütün hakimiyyət Fətəli xan Xoyskinin başçılığı ilə yeni yaradılmış hökumətə verilir, sonuncu isə hakimiyyəti ən qısa müddətdə çağırılmalı olan Ümumazərbaycan Müəssislər Məclisindən başqa heç kəsə təhvil verə bilməz".

1918-ci ildə çağırılmış Azərbaycan parlamentinin ilk təsis iclasında hökumət başçısı Fətəli xan Xoyski çıxış etdi:

1. O, Müvəqqəti Hökumətin fəaliyyəti dövründə görülən işlərdən danışdı;

2. Bütün hökumətin istefasını qəbul etməyi xahiş etdi;

3. Hökumətin fəaliyyətindəki qüsurlardan bəhs etsə də, onun millətin hüququnu, istiqlalını və maraqlarını müdafiə etdiyini xüsusi vurğuladı.

Parlament Müvəqqəti Hökumətin istefasını qəbul edib, yeni Nazirlər Şurasınıi tərkibini müəyyən etməyi və hökumətə başçılığı yenidən Fətəli xan Xoyskiyə tapşırdı. Fətəli xanın səhhətinin pisləşməsi ilə əlaqədar milli hökumətə başçılıq etmək iqtidarında olmadığını bildirməsinə baxmayaraq, parlament hökumətin təşkilini yenidən təkidlə Fətəli xana tapşırdı. Dekabrın 26-da Nazirlər Şurasının sədri hökumət proqramı və hökumətin tərkibi haqqında parlamentdə çıxış etdi. Hökumət proqramında Azərbaycanın müstəqilliyini möhkəmlətmək vəzifəsi ön plana çəkilmişdi. Nazirlər Şurasının sədri elə buradaca göstərirdi: "Fəqət, Azərbaycan istiqlaliyyəti ondan ibarət deyil ki, özümüz ilə özgə dövlətlər arasında bir sədd çəkək. Aşkardır ki, müstəqil Azərbaycan hökumətə ümum dövlətlər ilə rabitə hüsuluna çalışacaqdır. Bu rabitə əvvəlcə qonşu dövlətlər, ümumiyyətlə, sabiq Rusiya ərazisində təşəkkül tapmış dövlətlər, xüsusən, Rusiyanın özünə hasil olmalıdır". Müstəqilliyi möhkəmlətmək vəzifəsindən doğan qonşu dövlətlərlə normal münasibətlərin bərqərar olması, Azərbaycanın istiqlaliyyətinin tanınması və müstəqilliyin ilk şərtlərindən biri - milli ordunun yaradılması məsələsi hökumət proqramında öz əksini tapdı. Daha sonra daxili siyasət ("Biz türk islamlar heç bir zaman özümüzü vətənə övlad kibi görməyib, həmişə ögey olduğumuzu hiss etmişik. Şimdi biz öylə şərait hasil etməliyik ki, vətənimizdə yaşayan millətlərin həpsi özünü bir dərəcə vətən övladı kibi görsünlər. Biz özümüzə rəva görmədiyimizi sairlərinə rəva görməməliyiz"), maarif, ərzaq, yollar, ədliyyə, maliyyə ("...verginin ən çoxu, ən ağırı dövlətlilərin öhdəsinə düşməlidir, nəinki kasıbların"), fəhlə-kəndli ("...torpaq kəndliyə verilməzsə, fəhlənin həyatı təmin edilməzsə, heç vaxt iş yeriməz") məsələləri sahəsində hökumətin qarşısında duran vəzifələr və onların həllinin əsas istiqamətləri göstərilirdi. Fətəli xan çıxışının sonunda Nazirlər Şurasının yeni tərkibini parlamentin müzakirəsinə verdi. Geniş müzakirədən sonra "İttihad" fraksiyası bitərəf qalmaqla bütün fraksiyalar hökumət proqramına və hökumətin tərkibinə etimad göstərdilər.

Azərbaycan hökuməti koalisiyalı kabinə idi. Burada 3 nəfər rus naziri də təmsil olunmuşdu (erməni nümayəndələrinə təklif olunmuş 2 nazir kürsüsündən onlar imtina etdilər). Koalisiyalı yeni kabinə partiya prinsipi üzrə deyil, parlament fraksiyalarının hökumət başçısına və proqramına etimad prinsipi üzrə təşkil edilmişdi.

1919-cu ilin martında Xoyski hökuməti istefa verdi.

1919-cu il aprelin 19-da N.Usubbəyovun başçılığı ilə yeni hökumət təşkil edildi. Baş nazir N.Usubbəyov parlamentdə hökumətin proqramı ilə çıxış edərək bildirdi ki, hökumətin xarici siyasətinin başlıca məqsədini - Azərbaycanın dövlət müstəqilliyinin böyük dövlərlər tərəfindən tanınmasında, ölkənin ərazi bütövlüyünün təmin olunmasında və qonşu dövlətlərlə sıx əlaqələrin yaradılmasında görür. N.Usubbəyov bərabərlik və bir-birinin daxili işlərinə qarışmamaq prinsipləri əsasında Azərbaycanın Sovet Rusiyası ilə əlaqələri bərpa etməyə hazır olduğunu söylədi. Yeni kabinetin daxili siyasətinin əsaslarını şərt edən N.Usubbəyov qeyd etdi ki, "əsas azadlıqlar - söz azadlığı, mətbuat azadlığı, yığıncaqlar, ittifaqlar, tətillər azadlığı - hər bir mədəni demokratik dövlətin əsasını təşkil edir. Bu müqəddəs azadlıqları qoruyub müdafiə etməyi hökumət öz vəzifəsi hesab edir. Hər bir Azərbaycan vətəndaşı istədiyini yaza bilər, istədiyini deyə bilər, istədiyi yerdə toplaşa bilər. Bir şərtlə ki, bütün bunlar Azərbaycan xalqının ən müqəddəs hüququna - onun müstəqilliyinə qarşı çevrilməsin".

Azərbaycan tarixinin belə məsuliyyətli dövründə hökumət daxilində birliyi qoruyub-saxlamaq mümkün olmadı. Sovet Rusiyasına münasibət məsələsində hökumətin iki üzvü - F.X.Xoyski ilə M.H.Hacınski arasında qızğın mübarizə başladı. F.X.Xoyski Rusiyaya münasibətdə sərt xətt tərəfdarı idi. O, Azərbaycanda güclü hakimiyyətin yaradılmasını, daxili işlər naziri M.H.Hacınskinin istefa verməsini, parlamentin buraxılmasını, hökumətə ölkənin müdafiəsi üçün fövqəladə səlahiyyətlər verilməsini və yaxın 6 ay ərzində Ümumazərbaycan Müəssislər Məclisinə seçkilərin keçirilməsini tələb edirdi. F.X.Xoyski və tərəfdarları M.H.Hacınskinin daxili işlər naziri vəzifəsindən istefasına nail olsalar da, o, ticarət naziri kimi hökumətin tərkibində qala bildi və cavab zərbəsi üçün əlverişli imkan gözləməyə başladı. Belə bir imkan tezliklə ələ düşdü. Qarabağdakı daşnak qiyamından istifadə edən Rusiya təmayüllü qüvvələr N.Usubbəyov hökumətini ölkədə qayda-qanun yaratmaq iqtidarında olmamaqda günahlandıraraq, onu istefa verməyə məcbur etdilər. Yeni hökumət kabinetinin təşkili M.H.Hacınskiyə tapşırıldı. Dərhal bolşeviklərlə əlaqəyə girən M.H.Hacınski onlara öz hökumətində nazir vəzifələri təklif etdi və hətta bolşeviklər partiyasına daxil olmağa hazır olduğunu bildirdi. Ən acınacaqlısı isə, bu idi ki, M.H.Hacınski bütün bunları ölkəni dərin siyasi böhrandan çıxarmaq üçün deyil, getdikcə reallaşan bolşevik təhlükəsi qarşısında öz şəxsi təhlükəsizliyini təmin etmək üçün edirdi.

***Vahid ÖMƏROV,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği" istiqaməti çərçivəsində hazırlanıb*

**səs**

Son səhifə 23 avqust

## Üzərində Bizans imperatorunun təsviri olan qızıl boyunbağı tapılıb

Böyük Britaniyanın şərqində həvəskar kolleksiyaçı üzərində VI əsr Bizans imperatoru Yustinianın təsviri olan qızıl boyunbağı aşkar edib. AZƏRTAC mir24.tv saytına istinadla xəbər verir ki, kolleksiyaçı boyunbağını Norfolk qraflığında metal axtaran alətin köməyi ilə apardığı tədqiqat zamanı tapıb. Onun dediyinə görə, Böyük Britaniya ərazisində belə tapıntılar çox azdır. Alimlər hesab edirlər ki, dini ayin əşyası olan boyunbağı qədim qazıntı yerindən tapılıb. Yaxın vaxtlarda boyunbağı Britaniya muzeyinə göndəriləcək. Bundan əvvəl isə arxeoloqlar Krımda aparılan qazıntılar zamanı spartalıların məbədinin bizim eramızdan əvvəl təxminən III əsrə aid olduğunu müəyyən ediblər.

## Norman Rokvellin əsəri hərracda 1,6 milyon dollara satılıb

"Reuters" Agentliyi Heritage Auctions hərrac evinə istinadla bildirir ki, amerikalı rəssam və illüstrator Norman Rokvellin eskizi hərracda 1,6 milyon dollara satılıb. AZƏRTAC xarici KİV-lərə istinadən xəbər verir ki, texaslı ailə tərəfindən təqdim olunan "Çətin qərar" əsəri, həm də "Yağışa görə saxlanılan oyun" adıyla da məşhurdur. Lakin onlar rəsmin surət olduğunu təxmin ediblər.

Rokvell bu əsəri illüstrasiyanın qəhrəmanlarından birinə - beysbol üzrə hakim Con Reardona bağışlayıb. Nəticədə, rəsm nəslən Reardonun nəvəsi Sandra Sprinklə ötürülüb. 10 ildən artıq "Çətin qərar" əsəri onun Dallasdakı evini bəzəyib. Həyat yoldaşının vəfatından sonra qocalar evinə köçən Sandra Sprinkl hərrac evinə müraciət edib. Burada əsərin əksinə - surət yox, orijinal olduğu bildirilir. Əsərin yeni sahibi öz adının naməlum qalmasını istəyib.

## Pomidorla arıqlamağın resepti



Artıq çəkidən xilas olmaq üçün ən uğurlu mövsümlərdən biri yaydır. Bu, ilk növbədə, ətli və yağlı yeməklərə iştahanın azalması, meyvə-tərəvəzlərin bolluğu ilə əlaqədardır. Həmin mövsümdə pomidor pəhrizi arıqlamaq üçün ən uğurlu üsullardan biri sayılır.

Səhər yuxudan oyanan kimi bir stəkan suya 3 xörək qaşığı limon suyu əlavə edilərək içilir, 1 saat sonra 1 stəkan pomidor şirəsi qəbul edilir.

1 saat sonra 1 ədəd qaynadılmış kartof yeyilir, 1 stəkan sonra yarım stəkan pomidor şirəsi içilir. Bundan sonra hər hansı meyvədən 2-5 ədəd və ya yay mövsümündə bir dilim qarpız yemək olar. Yenə bir saatlıq fasilədən sonra 1 stəkan pomidor şirəsi içilir. Daha sonra duzu az olmaq şərtilə bir neçə dilim kolbasa, yaxud 2 ədəd sosis yeyilir.

1 saat keçəndən sonra yenə 1 stəkan pomidor şirəsi daha sonra, hər səhər olduğu kimi, 1 stəkan suya 4 xörək qaşığı limon suyu əlavə edərək içilir. 1 saat sonra qaynadılmış kartof, yenə də üstündən bir neçə ədəd meyvə yeyilir. Axşam kiçik bir kasada qatıq, 1 dilim qarpız və ya kibrit qutusu boyda pendir yemək də olar. Bunlardan əlavə günortalar yaşıl salat və tərəvəz yeməkləri, yaxud mövsümə uyğun sirkəli salatlar yeməyə icazə verilir. Alma sirkəsi yağları əriməyə kömək edir, lakin mədəsində problem olanlar sirkədən mümkün qədər uzaq olmalıdırlar.

## Ötən ilin yüz ən yaxşı futbolçusunun adları açıqlanıb




İngiltərənin "The Guardian" qəzeti ötən ilin 100 ən yaxşı futbolçusunun adlarını açıqlayıb. AZƏRTAC xəbər verir ki, siyahının ilk beşliyində ardıcıl olaraq Kriştianu Ronaldo ("Real Madrid"), Lionel Messi ("Barselona"), Luis Suarez ("Barselona") , Antuan Qrizman ("Atletiko Madrid") və Neymar ("Barselona") qərarlaşıblar. Türk əsilli futbolçulardan ikisi siyahıda yer ala bilib. Onlar Məsud Özil ("Arsenal", 23-cü yer) və İlkay Gündoğandır ("Mançester Siti", 85-ci yer). Siyahıda sonuncu yerdə Almaniyanın "Borussiya Dortmund" komandasının fransalı hücumçusu Usman Dembeledir. Xatırladaq ki, siyahıda futbolçular ötən il çıxış etdikləri klubların oyunçusu kimi göstərilib.

## Nəriman Abdullayev: "Boksçularımız mundiala tam hazırdırlar"



Kişi boksçulardan ibarət Azərbaycan millisinin böyük məşqçisi Nəriman Abdullayev komandanın dünya çempionatına hazırlığını dəyərləndirib. SİA-nın məlumatına görə, mütəxəssis yığmamızın avqustun 25-dən sentyabrın 3-dək Almaniyanın Hamburq şəhərində təşkil olunacaq mundiala tam hazır olduğunu diqqətə çatdırıb: "Dünya çempionatı üçün nəzərdə tutulan hazırlığı yüksək səviyyədə bitirdik. Üç mərhələdən ibarət təlim-məşq toplanışı keçdik. Komandamız yaxşı formadadır. İnanıram ki, Hamburqda lazımi nəticəni əldə edəcəyik".

Komandamız bu gün yarışın keçiriləcəyi Almaniyaya yollanıb. Dünya çempionatında ölkəmizin idman şərəfini Lorenzo Sotomayor (64 kq), Pərviz Bağırov (69 kq), Kamran Şahsuvarlı (75 kq) və Məhəmmədrəsul Məcidov (91 kq-dan yuxarı) qoruyacaqlar. N.Abdullayevin sözlərinə görə, mundiala qatılacaq hər bir boksçu uğur qazanmaq gücündədir: "Hamburqda rinqə çıxacaq boksçularımız kifayət qədər təcrübəlidirlər. Onlar bir sıra mötəbər turnirlərdə özlərini yaxşı tərəfdən göstəriblər. Heyətdə yer alan boksçularımızdan Kamran Şahsuvarlı, Lorenzo Sotomayor və Məhəmmədrəsul Məcidov Olimpiya Oyunlarının, Pərviz Bağırov dünya çempionatının mükafatçısıdır. Bu səbəbdən də onlara ümidlər böyükdür. Yarışın Azərbaycan üçün uğurlu alınacağına inanıram. Amma boksçularımızın medala gedən yolunda püşkatma da rol oynayacaq".

Böyük məşqçi sayca XIX dəfə keçiriləcək dünya çempionatının digərlərindən fərqlənəcəyini vurğulayıb. O bildirib ki, mundial iştirakçıları bu dəfə lisenziya ilə bəlli olduğundan hər bir döyüş gərgin keçəcək: "Bizim mübarizə aparacağımız çəki dərəcələrində də kifayət qədər titullu boksçular rinqə çıxacaqlar. Onlar arasında Rusiya və İngiltərə təmsilçilərini fərqləndirərdim. Amma qalib olmaq üçün hər birindən üstün olmalıyıq".

## "Milan" "Fiorentina"nın futbolçusunu transfer edib




"Milan" yay transfer pəncərəsində 11-ci futbolçunu heyətinə qatıb. SİA-nın məlumatına görə, "qırmızı-qaralar" "Fiorentina"nın futbolçusu Nikola Kaliniçi heyətinə cəlb edib. 29 yaşlı hücumçu bu klubda 1 illik icarə əsasında çıxış edəcək. "Milan" Xorvatiya millisinin üzvünü 20 milyon avro qarşılığında birdəfəlik transfer etmək hüququna da sahibdir. Klub icarə haqqı olaraq "Fiorentina"ya 5 milyon avro ödəyib.

## UEFA-nın rəsmi saytı "Qarabağ"dan yazdı



UEFA-nın rəsmi saytı Çempionlar Liqasının pley-off mərhələsinin cavab matçlarından əvvəl yazı dərc edib. SİA-nın məlumatına görə, qurumun rəsmi saytı "Kopenhagen" - "Qarabağ" cütünüə də yer ayırıb. UEFA-nın saytında Bakıdakı ilk qarşılaşmada 1:0 hesablı qələbə qazanan "Qarabağ"ın qrupa vəsiqə qazanmağa şansının çox olduğu vurğulanıb: "Qarabağ" Azərbaycanın Çempionlar Liqasının qrupundakı ilk klubu olmağın bir addımlığındadır. Bu vaxta kimi turnirin əsas mərhələsinə UEFA-nın 55 üzvündən 32 təmsilçisi qatılıb". Qeyd edək ki, "Kopenhagen" - "Qarabağ" matçı avqustun 23-də keçiriləcək. İlk matçda təmsilçimiz 1:0 hesablı qələbə əldə edib.

## ELAN

Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Mənzil-Kommunal Təsərrüfat Komitəsi Azər-Texniki İnventarlaşdırma İstehsalat İdarəsi tərəfindən Yevlax şəhər dəmir yolu binası 17, mənzil 3-də qeydiyyatda olan Umudova Nailə Zülfiqar qızının adına verilmiş 6836 saylı sənəd itdiyi üçün etibarsız sayılır.

***

Bakı şəhəri, Sabunçu rayonu, Zabrat 1, Füzuli 21 ünvanında yaşayan Əskərov Məmmədnağı Əlişir oğluna məxsus çıxarış sənədi (kupça) itdiyi üçün etibarsız sayılır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

*Buraxılışa məsul: Mətləb Salahov*

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**